AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 11 (1356), 13 - 19 mart 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Azərbaycanın parlament futbol komandası beynəlxalq turnirin qalibi olub

Martın 11-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 100 illik yubileyinə həsr olunan parlament komandalararası beynəlxalq futbol turnirinə yekun vurulub. Azərbaycanın parlament futbol komandası beynəlxalq turnirin qalibi olub. "İnter Arena"da keçirilən final oyununda Azərbaycan və Ukrayna komandaları qarşılaşıblar. Oyunun gedişini Milli Məclisin sədri Oqtay Əsədov, parlamentin digər vəzifəli şəxsləri və nümayəndə heyətlərinin üzvləri izləyiblər.

Əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Oyunda topa ilk toxunuşu Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov va Türkiyənin gənclər və idman naziri Osman Aşkın Bak ediblər.

Komandaların cəhdlərinə baxmayaraq oyunun birinci hissəsində hesab açılmayıb. İkinci hissəyə daha fəal başlayan Azərbaycan komandası 36-cı dəqiqədə Əli Abişovun qolu ilə hesabda önə keçib. Oyunun 60-cı dəqiqəsində Ukrayna komandasının üzvü Oleq Osuxovski hesabı bərabərləşdirib. Qarşılaşmanın sonuncu dəqiqəsində Musa Qurbanovun qolu ilə Azərbaycan komandasının qələbəsi rəsmiləşib.

Beləliklə, Azərbaycan komandası görüşdən 2:1 hesablı qələbə ilə ayrılıb.

Oyun başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub. Beynəlxalq turnirin iştirakçı komandalarının üzvlərinə medallar və kubok təqdim olunub. Mükafatları Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov təqdim ediblər.

Xatırladaq ki, turnirdə Azərbaycan Milli Məclisinin, Türkiyə Böyük Millət Məclisinin, Ukrayna Ali Radasının, Polşa və Latviya seymlərinin komandaları yarışıblar.

## Bakı gimnastika üzrə daha bir beynəlxalq yarışa ev sahibliyi edəcək

Azərbaycan Gimnastika Federasiyasına (AGF) daha bir mötəbər yarışın - akrobatika üzrə Dünya Kubokunun keçirilməsi həvalə olunub.

Bu il noyabrın 17-18-də Bakı ilk dəfə olaraq akrobatika gimnastikası üzrə Dünya kuboku yarışlarına ev sahibliyi edəcək. Bu barədə qərar Beynəlxalq Gimnastika Federasiyasının (FİG) İcraiyyə Komitəsinin İsveçrənin Lozanna şəhərində keçirilən iclasında qəbul edilib.

Milli Gimnastika Arenasında (MGA) keçiriləcək yarışlarda gimnastlar kişi cütlüyü, qadın cütlüyü, qarışıq cütlük, qadın və kişi qrupu tərkibində mübarizə aparacaqlar.

Xatırladaq ki, Milli Gimnastika Arenası bu il idman gimnastikası üzrə



Dünya kuboku (15-18 mart), batut gimnastikası, tamblinq və ikili-mini batut üzrə Avropa çempionatı (12-15 aprel), bədii gimnastika üzrə "AGF Junior Trophy" adlı beynəlxalq turnir (23-24 aprel), bədii gimnastika üzrə Dünya kuboku (27-29 aprel) və yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya xarakterli təsnifat yarışlarına (22-23 iyun) ev sahibliyi edəcək.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakı Marafonu-2018 keçiriləcək

Heydər Əliyev Fondunun təşəbbüsü ilə mayın 13-də Bakı Marafonu-2018 keçiriləcək. "Küləyə qalib gəl" şüarı altında keçirilən Bakı marafonu ardıcıl üçüncü ildir ki, təşkil olunur.

İdmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirmək məqsədi daşıyan Bakı Marafonu-2018 layihəsinin eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsinin, Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil olunacaq. Layihənin icrasını isə Sport Marketing Group (SMG) şirkəti həyata keçirəcək.

*(ardı 3-cü səhifədə)*

## Bədii gimnastların uğurlu çıxışı

2018-ci il mövsümündə bədii gimnastlarımız komandanın hesabına ilk medalları yazdırıblar. Təmsilçimiz Dərya Farşbafşəhriyari "Riga Spring" adlı beynəlxalq turnirdə bürünc medala sahib olub. Gənclər arasında çıxış edən gimnastımız halqa ilə icra etdiyi kompoziyaya görə hakimlərdən 14.550 xal alıb. Bədii gimnastımızın ikinci çıxışı ona gümüş medal qazandırıb. İdmançımızın topla çıxışının 15.550 xalla dəyərləndirilməsi onu yalnız Ukrayna gimnastından geridə qoyub.

Dərya Farşbafşəhriyari üçüncü medalını komanda yarışlarında əldə edib. O, komanda yoldaşı Arzu Cəlilova ilə birlikdə fəxri kürsünün 3-cü pilləsində qərar tutub.

Yığmamızın üzvləri eyni şəhərdə təşkil olunan "Baltic Hoop" yarışında da çıxış ediblər. Bu turnirdə böyüklər arasında ölkəmizi təmsil edən Zöhrə Ağamirova gürzlərlə çıxışına görə gümüş medal qazanıb. Digər gimnastımız Veronika Hudis isə ən yaxşı nəticəsini halqa ilə göstərək 6-cı olub.



Kişi akrobatlarımız isə Portuqaliyanın Maya şəhərində keçirilən Dünya kuboku yarışlarında iştirak ediblər. Azərbaycanı kişi cütlüyü tərkibində Seymur Cəfərov və Murad Əkpərov, qarışıq cütlüklər tərkibində isə Ağasif Rəhimov və Nurcan Cabbarlı, həmçinin Abdulla Əl-Məşayxi və Ruhidil Qurbanlı təmsil ediblər.

Yarışlarda iştirak edən hər 3 cütlüyümüz finala vəsiqə qazanıblar. Seymur və Murad 27.760 xalla 5-ci, Ağasif və Nurcan 28.400 xalla 5-ci, Abdulla və Ruhidil isə 27.530 xalla 6-cı yerləri bölüşdürüblər.

## XXIII Qış Olimpiya Oyunları:

### *idmanın və Olimpiya hərəkatının növbəti mərhələsi, yaxud tarix olduğu kimi*




Qədim tarixə malik Olimpiya oyunları insanın fiziki gücünü nümayiş etdirməklə yanaşı, sülhü, əmin-amanlığı, həmrəyliyi, birgəyaşayış prinsiplərini özündə birləşdirdiyi üçün ümumbəşəri dəyərlər baxımından böyük əhəmiyyətə malikdir. Bu oyunlar siyasi çəkişmələrdən, məhəlli münaqişələrdən, müharibələrdən, terrorizimdən və s. çoxsaylı qlobal problemlərdən, əgər belə demək mümkünsə, əziyyət çəkən insanları bir ideya - sülh, həmrəylik, qardaşlıq, əmin-amanlıq ideyası ətrafında birləşdirərək gələcəyə daha inamla baxmağa sövq edir.

*(ardı 4-cü səhifədə)*

## 3 təmsilçimiz reytinq cədvəlinin ilk onluğunda

Dünya Taekvondo Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub.

Mart ayı üçün tərtib olunan siyahıda yığmamızın üç taekvondoçusu yer alıb. Hesabında 423,14 xal olan Rio-2016 Yay Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionu Radik İsayev +80 kq çəki dərəcəsində ikinci pillədədir. Dünya çempionu və Olimpiya mükafatçısı Milad Beigi Herçəqani də (80 kq) 444,93 xalla reytinq cədvəlində ikinci yerdə qərarlaşıb. 68 kq çəki dərəcəsində Bakı-2015-in və IV İslam Həmrəyliyi Oyunlarının çempionu olan Ayxan Tağızadə isə 197,23 xalla səkkizinci pillədə yer alıb.



Reytinq xalları Dünya Taekvondo Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvondo qaydalarına görə 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar Olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

Olimpiya çempionları və mükafatçıları yetişdirən idman cəmiyyəti uğurları ilə seçilir

Səh. 2

Məktəb təhsillə birgə şagirdlərin sağlamlığının da qayğısına qalmalıdır

Səh. 6

AFFA-nın növbəti konfransı keçirilib

Səh. 7

## *Anons*

Təmsilçimiz iddiaçılar turnirində yarışır

*Avrokuboklarda 6 klubumuz iştirak edə bilər*

"Sofia open" turnirində 1 qızıl və 1 bürünc medal

Səh. 3

İcraiyyə Komitəsinin iclasında yeni qərarlar

Səh. 7

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

***Fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançının şərəfinə dövlət bayrağı qaldırılır və dünyanın bütün musiqi əsərlərindən əzəmətli təsir bağışlayan dövlət himni səsləndirilir. Bu ritual idmançının təmsil etdiyi ölkənin siyasət baxımından hər hansı beynəlxalq əhəmiyyətli iclasda, assambleyada uğuruna bərabər hesab edilir. Namiq Abdullayev, Zemfira Meftaxetdinova, Fərid Mansurov kimi Olimpiya çempionlarının nailiyyəti elə müstəqil Azərbaycan dövlətinin nailiyyətidir. İdmançılarımızın saysız-hesabçız beynəlxalq yarışlarda, qitə birinciliklərində əldə etdiyi qələbələr vətənimizin dünya ölkələri arasında daha yaxşı tanınmasında əhəmiyyətli rol oynayır.***



# Olimpiya çempionları və mükafatçıları yetişdirən idman cəmiyyəti uğurları ilə seçilir

Orta məktəblərin ibtidai siniflərindən başlamış hərbi xidmətə, idarə və müəssisələrə qədər idman hamının gündəlik həyat normasına çevrildiyi zamanın şahidləriyik. O vaxtlardan başlayaraq dünyada analoqu olmayan uşaq-gənclər idman məktəblərinin geniş şəbəkəsi yaradıldı, çoxmilyonluq idman cəmiyyətləri fəaliyyət göstərməyə başladı.

Ölkəmizdə səmərəli və məhsuldar fəaliyyəti ilə seçilən "Dinamo" Bədən Tərbiyəsi və İdman cəmiyyəti (BTİC) də məhz həmin vaxtlarda yaradıldı. Azərbaycan Fövqaladə Komissiyasının 9 mart 1926-cı il tarixli 28 saylı əmri ilə Bakı şəhərində fəaliyyətə başlayan cəmiyyətin, elə həmin ildə Naxçıvan MR-də, 1927-ci ildə Lənkəran və Cəbrayılda, 1929-cu ildə Gəncə və Göytəpədə, 1931-ci ildə Zaqatalada və sonrakı illərdə Sumqayıt, Mingəçevir və digər bölgələrdə filialları təsis edildi.

## DİN İdman Cəmiyyəti qədim və zəngin ənənələrə malikdir

Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev "Dinamo" İdman Cəmiyyətinin fəaliyyəti ilə bağlı çıxışlarının birində demişdir: "Bizim çoxumuz, o cümlədən, mən də uzun illər "Dinamo" Cəmiyyətinin üzvü olmuşuq. Mən bundan həmişə xeyir görmüşəm. "Dinamo" Cəmiyyəti bu gün də öz fəaliyyəti ilə Azərbaycanda idmanına, bədən tərbiyəsinin inkişafına xidmət edir".

Azərbaycan idmanına Zemfira Meftaxetdinova, Namiq Abdullayev, Nazim Hüseynov, Elnur Məmmədli, İradə Aşumova, Fuad Aslanov, Mövlud Mirəliyev kimi istedadlı atletlər bəxş edən DİN İdman Cəmiyyəti qədim və zəngin ənənələrə malikdir. "Dinamo" İdman Cəmiyyətinin zəngin tarixi, fəaliyyəti, uğur və nailiyyətləri barədə ətraflı məlumat almaq üçün cəmiyyətin sədri, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) İcraiyyə Komitəsinin üzvü, Olimpiya çempionu Zemfira xanım Meftaxetdinova ilə görüşdük. Mövzudan kənar olsa da, qeyd etməliyəm ki, nədənsə son zamanlar səmimi insanların sayı azalıb və bəlkə də, barmaqla sayılacaq qədər azdır. Mən deyərdim ki, Zemfira xanımda əsl insana məxsus keyfiyyətlər cəmləşib. Olimpiya çempionumuz səmimi olduğu qədər də, təvazökar və ünsiyyətcil insandır.

***- Zemfira xanım, söhbətimizə rəhbərlik etdiyiniz cəmiyyətin yenidən yaradılması, ümumiyyətlə, tarixindən başlayaq.***

- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyəti respublikanın daxili işlər orqanlarında və daxili qoşunlarda çalışan əməkdaşların, hərbi qulluqçuların fiziki hazırlığının yüksəldilməsinə və idmanın kütləviliyinin artırılmasına xidmət edir. DİN İdman Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli Fərmanı əsasında Daxili İşlər Nazirliyinin "Dinamo" BTİC-nin əsasında yenidən yaradıldı. 2002-ci ildən etibarən "Dinamo" BTİC ləğv edildi və onun mülkiyyətində olan bütün bina, qurğu, avadanlıq, inventar, kadr heyəti DİN İC-nin sərəncamına verildi. 2009-cu ildə Xətai rayonunda, hazırda oturduğumuz binada cəmiyyətin yeni inzibati binası istifadəyə verildi.

Cəmiyyətimizin əsas fəaliyyət sahəsi iki istiqamətdən ibarətdir. Əsas istiqamət, daxili işlər orqanlarında, hissələrdə əməkdaşların fiziki hazırlığının təkmilləşdirilməsi, idmanın kütləviliyinin artırılması və xidməti idman növlərinin inkişafını təmin etməkdir. Fiziki hazırlıq dərslərinin, tədbirlərin, idman yarışlarının təşkili, DİN-in orqanlarında və hissələrində fiziki hazırlıq üzrə təlimatçıların hazırlanması, xidməti idman növləri üzrə birincilik və çempionatların həyata keçirilməsi, yığma komandanın heyətinin müəyyən edilməsi, eləcə də komandanın beynəlxalq yarışlarda iştirakının təmin edilməsi bizim əsas fəaliyyət sahəmizdir.

Cəmiyyətimizin fəaliyyətində ikinci əsas istiqamət əhali arasında bədən tərbiyəsinin kütləviliyinin təmin edilməsi, yeniyetmə və gənclər arasında hüquq pozuntularının, cinayətkarlığın qarşısının alınması, sağlam həyat tərzinin təbliği məqsədilə onların idmana cəlb olunması, perspektivli idmançıların aşkar edilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsidir.

***- DİN İdman Cəmiyyətində idmançılar üçün hansı şərait yaradılıb?***

- Müasir tələblərə cavab verən idman zalları idmançıların ixiyarına verilib. Burada onların təlim-məşqlərini yüksək səviyyədə keçirmələri üçün hər cür şərait yaradılıb. DİN İC-nin inzibati binasında güləş, cüdo, əlbəyaxa döyüş, boks, taekvondo, kikboksinq, ciu-citsu idman növləri ilə məşğul olmaq üçün 7 idman zalı fəaliyyət göstərir. İdman oyunları üçün isə 1 qapalı idman meydançamız vardır. Hazırda DİN İC-in Bakı, Gəncə, Sumqayıt və Şirvan şəhərləri üzrə filiallarında 15 idman növündə məşğələ keçirilir. Bunlardan 10-u Olimpiya (sərbəst və yunan-Roma güləşi, cüdo, atçılıq, boks, taekvondo, bədii gimnastika, güllə və stend atıcılığı), qalanları isə qeyri-Olimpiya (karate, kikboksinq, ciu-citsu, sambo, kunq-fu, aykido, uşu-sanda, badminton, atçılıq) idman növləridir. Həm Olimpiya, həm qeyri-Olimpiya idman növlərində aparılan məşqlərdə məqsəd daxili işlər orqanlarının əməkdaşlarının fiziki hazırlığını möhkəmləndirmək, eləcə də yüksək dərəcəli idmançıların hazırlanmasını təmin etməkdir.

***- Dinamoçuların arasında vaxtilə məşhur bəstəkarlar, alimlər də az olmayıb...***

"Dinamo" yarandığı gündən etibarən öndə getməyi bacarıb. Cəmiyyətin yetirmələri uzun illər ərzində əzmkarlığı, yüksək uğurları və nailiyyətləri ilə başqalarından seçiliblər. Dinamoçuların həyat devizi belə idi: "Sən çempion olmaya bilərsən, amma ölkənin layiqli vətəndaşı olmağa borclusan!". Sonradan onlardan bir qismi tanınmış idmançı olmasalar da, ictimai həyatın müxtəlif sahələrində görkəmli şəxsiyyət kimi sevilirdilər.

## Maestro Niyazi bu cəmiyyətin yetirməsidir

Azərbaycanın idman həyatında 90 ildən artıq dövr ərzində şərəflə xidmət edən DİN-in İdman Cəmiyyətinin üzvlərindən 2 nəfər Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına, 7 nəfəri "Şöhrət" ordeni və 10 nəfəri isə "Tərəqqi " medalına layiq görülüb. Bundan başqa, cəmiyyətin yetirmələrindən beş nəfəri Sovet İttifaqı Qəhrəmanı, ikisi Sosialist Əməyi Qəhrəmanı, biri SSRİ-nin təyyarəçi-kosmonavtı, biri SSRİ xalq artisti, üç nəfəri isə SSRİ Yazıçılar birliyinin üzvü olub. Dinamoçular arasında Azərbaycanın Elmlər Akademiyasının müxbir üzvü, professor, elmlər doktoru, elmlər namizədi, Əməkdar idman xadimi (11 nəfər), fəxri bədən tərbiyəsi və idman işçisi (21), habelə Əməkdar idman ustası (20), beynəlxalq dərəcəli idman ustası (33), əməkdar məşqçi (45) və yüzlərlə tanınmış ziyalı vardır. Görkəmli bəstəkarımız və dirijor Niyazi "Dinamo"nun üzvü kimi dəfələrlə ağır atletika üzrə Azərbaycan çempionu adını alıb.

***- Necə düşünürsünüz, torpaqlarımızın işğal altında olduğu bir vaxtda cəmiyyətin üzvlərindən daha çox sayıqlıq tələb olunur?***

- DİN İC-nin üzvləri idmanla yanaşı, ölkənin həyatında baş verən ictimai, siyasi proseslərdə də yaxından iştirak edirlər. Dinamoçular Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edərək həm Böyük Vətən Müharibəsi illərində, həm də dövlətimizin ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda gedən mübarizədə əsl qəhrəmanlıq nümayiş etdiriblər. Onlar bu gündə vətənə sədaqətlə xidmət və qulluq edirlər. Azərbaycanın Milli Qəhrəmanları Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş polis baş leytenantı mərhum İlqar İsmayılov və hazırda Dövlət Təhlükəsizlik Xidmətinin rəisi vəzifəsində xidmət edən general Mədət Quliyev DİN İdman Cəmiyyətinin yetirmələridir.

***- Bu idman cəmiyyəti çoxları üçün "çempionlar məktəbi" kimi tanınıb...***

- İbrahimpaşa və Muxtar Dadaşov qardaşları (sərbəst güləş), Azərbaycan boksunun atası Abbas Ağalarov, Sabir Hüseynov (pəhləvan) məhz dinamoçu olublar. Xandadaş Mədətov, Yuri Konovalov, Əhməd Məmmədoğlu, Aydın İbrahimov, Rauf Cabbarov, Ziba Ələsgərova kimi idmançılar respublikamızın bayrağını yalnız ittifaq turnirlərində deyil, Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında uca tutublar. Adıçəkilən idmançıların hazırlanmasında öz işinin bilicisi olan, təcrübəli məşqçi Əfqan Səfərovun böyük əməyi olub. Əfqan Səfərovun yetirmələri 5 dəfə dünya, 7 dəfə Avropa, 120 dəfə SSRİ rekordu müəyyən ediblər. Onu da qeyd edim ki, dünya və Avropa çempionları Xəzər İsayev , Tərlan Poladov, Zülfiyyə Hüseynova məhz bizim cəmiyyətin yetirmələridir. Bakı-2015 Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının gümüş medalçısı, taekvondoçu Fəridə Əzizova, dünya və Avropa çempionu, I Avropa Oyunlarının gümüş mükafatçısı Rafiq Hüseynov buranın üzvüdürlər. Polis idmançılarımızdan Fərid Mayılov (kunq-fu-sanda), Ağamahmud Siracov (kikboksinq) və başqaları uğurları ilə fərqlənirlər.

## "Biz hamımız bu vətənə xidmət edirik"

***- Zemfira xanım, Olimpiya Oyunlarının qalib və mükafatçıları arasında da cəmiyyətin yetirmələri kifayət qədərdir. Elə biri siz özünüz...***

- DİN İdman Cəmiyyəti Nazim Hüseynov, Namiq Abdullayev, Elnur Məmmədli, İradə Aşumova, Fuad Aslanov, Mövlud Mirəliyev kimi Olimpiya çempionları və mükafatçıları ilə fəxr edir. Hazırda cəmiyyətin sıralarında xidmət edən Olimpiya çempionlarından DİN-in Daxili Qoşunların Baş İdarəsi (DQBİ) idman komandasının rəisi, polis polkovniki Namiq Abdullayevin, Olimpiya Oyunlarının mükafatçılarından Şəmkir RPŞ-nin əməkdaşı, polis mayoru Mövlud Mirəliyevin, Nərimanov RPİ-nin əməkdaşı, polis polkovnik-leytenantı, idmanın sambo növü üzrə yeddiqat dünya çempionu Ceyhun Məmmədovun, DİN-in İdman Cəmiyyətinin Gəncə şəhər regional qurumunun əməkdaşı, polis kapitanı, dördqat dünya çempionu Hakim Nəzərəliyevin zəngin və şərəfli həyat yolu gənc idmançılarımız üçün nümunədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev DİN İdman Cəmiyyətinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Azərbaycanda idmanın geniş vüsət olması çox mühüm bir hadisədir. Gənc nəslin yetişdirilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, ümumiyyətlə, ölkənin idman şöhrətinin yüksəklərə qaldırılması üçün Azərbaycan dövləti hər şeyi edir və mən çox şadam ki, bizim tanınmış görkəmli idmançılar - Olimpiya çempionları, dünya, Avropa çempionları Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində öz fəaliyyətlərini davam etdirirlər". Ölkə rəhbərinin bu sözləri idmançıları, federasiyaları, idman cəmiyyətləri və klublarının daha da əzmlə çalışmağa sövq edir. Biz hamımız bu vətənə- Azərbaycana xidmət edirik.



## Uşaq və gənclərin zərərli vərdişlərdən uzaq olması üçün tədbirlər görülür

***- Uşaq və gənclərin idmana cəlb olunması, idmanının kütləviliyi istiqamətində hansı işlər görülür?***

- DİN İdman Cəmiyətinin 50 minə yaxın üzvü vardır. İdman bölmələrinə gələn və fiziki sağlamlıqlarını möhkəmləndirmək istəyənlərin sayı günügündən artır. Dövlətimizin gənclər siyasətinin əsasında genofondun qorunması prinsipi əsas götürülür. Burada gənc nəslin sağlamlığı, onların geniş təfəkkürə, dünyagörüşə malik, vətənpərvər insan kimi yetişmələri əsas məqsəd kimi qarşıya qoyulur. Rəhbərlik etdiyim idman cəmiyyətində uşaq və gənclərin zərərli vərdişlərdən, hər hansı cinayət hallarından uzaq olması üçün lazım olan bütün mühüm tədbirlər görülür. Şübhəsiz ki, idman bölməsinə gələn uşaq və yeniyetmələrin hamısı peşəkar idmançı olmur. Əsas məsələ sağlamlıqdır. İdman güclüləri, cəsurları və iradəli insanları sevir. Sona qədər dözüb qalanlar tanınmış idmançı olmaqla bərabər, ölkəmizin şan-şöhrətini yüksəklərə qaldırır, beynəlxalq arenada tanıtdırırlar.

Bu günün uşaq və yeniyetmələri sabahın əsgərləridirlər. İdmanla məşğul olmaq həm də kişilik, mərdlik məktəbinə gedən yolda köməkdir. Bu baxımdan xüsusilə, əlbəyaxa döyüş növlərinə olan həvəs gəncləri mənən

> ***"Dinamo" cəmiyyəti, həqiqətən, qədim tarixə malik olan və Azərbaycanda idmanın, bədən tərbiyəsinin on illərlə böyük xidmət göstərən bir cəmiyyətdir.***
>
> ***Heydər Əliyev***

güclü edir, fiziki cəhətdən möhkəmləndirir. Belə gənclərimiz orduya hazır gedir.

***- Ötən il cəmiyyətiniz üçün hansı hadisələrlə yadda qalıb?***

- 2017-ci ildə həm ölkəmiz, həm də bizim cəmiyyətimiz üçün IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi əlamətdar hadisələrdən biri oldu. Ölkəmizin ev sahibliyi etdiyi yarışlarda DİN İC-nin 17 idmançısı 10 idman növündə (stend və güllə atıcılığı, boks, cüdo, yunan-Roma güləşi, taekvondo, karate, atletika, su polosu, zorxana) təmsil olundu. Təmsilçilərimiz böyük əzmkarlıqla mübarizə apararaq Azərbaycan yığma komandasının hesabına 13 (9 qızıl, 3 gümüş və 1 bürünc) medal yazdırmağı bacardılar. Ruslan Lunyov güllə atıcılığı üzrə 5 qızıl, stend atıcıları Əli Hüseynli və Aydan Camalova isə komanda yarışında 1 qızıl medala sahib oldular. Bundan başqa, Kamran Məmmədov (yunan-Roma), Teymur Məmmədov (boks), Ayxan Mamayev (taekvondo) IV İslam Həmrəyliyi Oyunlarını çempion kimi başa vurdular. Gümüş medalları komandamıza Fəridə Əzizova (taekvondo) və Kənan Abdulxanlı (cüdo) qazandırdılar. Tural Əliyev (zorxana) və Nigar Nəsirova isə bürünc medala layiq görüldülər. Nigar Nəsirovanın hesabında Ruslan Lunyovla birgə komanda yarışında 1 qızıl medal da var idi.

Bundan başqa, cəmiyyətimizin dörd əməkdaşı İslamiadada hakim qismində iştirak edib. Polis polkovnik-leytenantları Hicran Şərifov yunan-Roma güləşi, Fariz Yusifov futbol, polis serjantı Telman Salayev və gizir Könül Sultanova voleybol üzrə yarışlarda ədaləti təmsil ediblər.

Ötən il cəmiyyətimizin təmsilçiləri ölkə və beynəlxalq miqyaslı yarışlarda 231 medal əldə ediblər ki, onun 73-ü qızıl, 65-i gümüş və 93-ü bürüncdür. Həmin medallardan 120-i böyüklərin, 47-i gənclərin, 64-ü isə yeniyetmə idmançıların payına düşür. Təmsilçilərimiz beynəlxalq yarışlarda təkcə ötən il 96 medala sahib olublar. Uğurlarımız davam edir. İnanıram ki, bu il əldə olunacaq qələbələrin sayı daha çox olacaq.

***- Cəmiyyətin beynəlxalq əlaqələri barədə nə deyə bilərsiniz?***

- İdman cəmiyyəti beynəlxalq əlaqələr çərçivəsində 2008-ci ildən MDB, Baltikyanı, habelə İtaliya, Bolqarıstan, Rumuniya, Anqola və s. ölkələrlə sıx əməkdaşlıq edir. DİN İC 2013-cü ildən beynəlxalq ölkələrin "Dinamo" təşkilatlarının Beynəlxalq Koordinasiya Şurasının üzvüdür.

Azərbaycan idmanının şanlı ənənələrini yaşadan və daim öz töfhələrini verən DİN-in İdman Cəmiyyətinin yetirmələri bundan sonra da ölkə idmanının şöhrətini uca tutacaq və yeni-yeni qələbələri ilə xalqımızı sevindirəcəkdir.

***- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinə rəhbərlik edirsiniz. İdmançı kimi rəhbər vəzifədə çalışmaq çətin deyil?***

- Düzünü desəm, həm çətin, həm də şərəfli peşədir. Həmişə, hər yerdə çalışmışam ki, mənə həvalə olunan işin öhdəsindən ləyaqətlə gəlim, dövlətimizin, nazirliyimizin mənə göstərdiyi yüksək eitmadı doğruldum.

Sidney-2000 Olimpiadasının çempionu, Afina-2004 Olimpiadasının bürünc mükafatçısıyam. Dəfələrlə dünya və Avropa çempionu tituluna layiq görülmüşəm. Dediyim odur ki, yarışlarda iştirak etmək və medal qazanmaq mənim üçün asan idi, nəinki rəhbər vəzifədə çalışmaq. Nə gizlədim, əvvəllər müəyyən çətinliklər var idi. Amma tədricən hər şey qaydasına düşdü.

***- Bir qadın, ana kimi sizin də vəzifələriniz var. Çatdıra bilirsinizmi?***

- Əlbəttə, çətindir. Həm rəhbər vəzifədə çalışmaq, həm ev, ailə qayğıları ilə yüklənmək asan deyil. Əsas odur ki, həm işini, həm də ailəni sevəsən.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*



# Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakı Marafonu-2018 keçiriləcək

(əvvəli 1-ci səhifədə)

Bakı Marafonu-2018 Dövlət Bayrağı Meydanından start götürərək Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edəcək.

16 yaşından yuxarı hər kəs əvvəlcədən qeydiyyatdan keçərək yarımarafonda iştirak edə bilərlər.

Bakı Marafonu-2018-dən toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı layihəsinə yönəldiləcək.

Bakı Marafonu-2018-in mükafatlandırma mərasimi iki kateqoriya üzrə həyata keçiriləcək. Marafonun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Kişilər və qadınlar arasında marafon yarışlarının nəticələrinə görə, 1-ci yerin qalibi 3000 AZN, 2-ci yerin qalibi 2000 AZN, 3-cü yerin qalibi isə 1000 AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaqlar.

Bununla yanaşı, kişi və qadın kateqoriyaları üzrə 4-10-cu yerlərin sahiblərinə müxtəlif qiymətli hədiyyələr veriləcək. Bütün marafon iştirakçılarına və marafon yarışının təşkilində dəstək göstərən könüllülərə təşkilatçılar tərəfindən sertifikatlar təqdim olunacaq.

Xatırladaq ki, Bakıda 2016-cı və 2017-ci illərdə təşkil olunan yarımarafonlarda 20 mindən çox iştirakçı qeydiyyatdan keçmişdi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə keçirilən bu yarışlarda Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb çalışan əcnəbilər, İspaniya, Fransa, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Ukrayna, Səudiyyə Ərəbistanı, İran, Hindistan, Çexiya, Meksika və digər ölkələrin Azərbaycandakı səfirliklərinin, "BP Azərbaycan" şirkətinin, Böyük Britaniyanın Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının nümayəndələri də iştirak edirdilər. Yarımarafonlarda ABŞ, Avstriya, Almaniya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, İspaniya, Fransa, Rusiya, Polşa, İran, Ukrayna, Gürcüstan, Keniya və digər ölkələrdən turistlər də iştirak etmişdilər. Layihə region sakinləri tərəfindən böyük maraqla qarşılandığından 2017-ci il sentyabrın 17-də Gəncə şəhərində də təşkil olunub.

***Şahmat***

## Təmsilçimiz iddiaçılar turnirində yarışır

Almaniyanın paytaxtı Berlində şahmat üzrə iddiaçılar turniri keçirilir. Yarışda Azərbaycanı Şəhriyar Məmmədyarov təmsil edir. Hazırda 2809 xalla FIDE reytinq cədvəlində ikinci pillədə qərarlaşan qrossmeysterimiz turnirin reytinq favoritidir.

Turnirdə Şəhriyar Məmmədyarov ilə yanaşı, xüsusi dəvət olunmuş Vladimir Kramnik, dünya ikincisi Sergey Karyakin (hər ikisi Rusiya), dünya kubokunun qalibi Levon Aronyan (Ermənistan), finalçı Din Lijen (Çin), FIDE reytinqində yüksək reytinqə malik iki qrossmeyster - Fabiano Karuana və Uesli So (hər ikisi ABŞ), eləcə də Qran-pri seriyasının finalçısı Aleksandr Qrişuk (Rusiya) qüvvəsini sınayır. Qrossmeysterimiz ilk turda qara fiqurlarla rusiyalı Sergey Karyakinə qalib gəlib. Şahmatçımız ikinci turda Ermənistan təmsilçisi Levon Aronyanla qarşılaşıb. Oyun heçəheçə yekunlaşıb. Hesabında 1,5 xal olan Vladimir Kramnik, Şəhriyar Məmmədyarov və Fabiano Karuana 1-3-cü yerləri bölüşürlər. Levon Aronyan, Dinq Lijen və Aleksandr Qrişuk 1 xalla 4-6-cı pillədə qərarlaşıblar. Sergey Karyakin



0,5 xalla yeddinci, hesabında xal olmayan Uesli So isə sonuncu pillədə yer alıb.

Martın 28-dək davam edəcək iddiaçılar turnirinin qalibi dünya çempionluğu uğrunda görüşdə bu titulun hazırkı sahibi norveçli Maqnus Karlsen ilə üz-üzə gələcək.

***Voleybol***

## Avrokuboklarda 6 klubumuz iştirak edə bilər

Avropa Voleybol Konfederasiyası (CEV) qadın və kişi klubların yeni reytinq cədvəlini açıqlayıb. Avrokubokdakı çıxışa əsasən tərtib olunan siyahılarda Azərbaycan müxtəlif pillələrdə qərarlaşıb.

Belə ki, qadın komandaların reytinqində ölkəmiz 9-cu yerdədir. Ötən illə müqayisədə 5 pillə geriləyən Azərbaycanın aktivində 221,99 xal var. 2014-2015, 2015-2016 və 2016-2017 mövsümlərinin nəticələrinə görə tərtib olunan cədvələ Türkiyə (489,67) başçılıq edir. Rusiya (459,34) ikinci, İtaliya (336,99) üçüncüdür.

Ölkəmizin 9-cu yerdə qərarlaşmağı avrokuboklarda 4 komanda ilə iştirak etməyimizə imkan verir. Belə ki, ölkəmiz Çempionlar Liqası və CEV kubokunda 1, "Çelenc Cup"da 2 komanda ilə təmsil oluna bilər. Qitənin ən nüfuzlu turnirində yeganə təmsilçimiz bu dəfə birbaşa qrup mərhələsində deyil, təsnifat mərhələlərində də oynamalıdı.

Kişi komandaların reytinqində isə ölkəmiz 39-56-cı yerlərə şərikdir. Aktivimizdə xal olmasa da, bu yer Azərbaycana Çempionlar Liqasının təsnifat mərhələsində və "Çelenc Cup"da 1 komanda ilə təmsil olunmağa imkan verir.

Bu siyahının ilk "üçlüy"ündə müvafiq olaraq, Rusiya (462,00), İtaliya (422,01) və Türkiyə (316,33) qərarlaşıb.

***Cüdo***

## Avropa kuboku yarışlarında yüksək nəticə



Türkiyənin Antalya şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları başa çatıb. Beynəlxalq turnirin ilk günündə Azərbaycan cüdoçuları 2 medal qazanıblar. Qızların yarışında Vüsalə Kərimova (44 kq) bütün rəqiblərinə qalib gələrək Avropa kubokunun qızıl medalına sahib olub. 48 kq çəki dərəcəsində mübarizə aparan Səbinə Əliyeva Antalya turnirinin bürünc medalına layiq görülüb. Turnirin sonuncu günündə millimiz hesabına daha üç medal yazdırıb. Oğlanların mübarizəsində İbrahim Ağakişiyev (81 kq), Yaqub İsmayılzadə (90 kq) və Toğrul Salmanov (90 kq-dan yuxarı) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətləniblər.

Beləliklə, Azərbaycan cüdoçuları Antalya turnirində 1 qızıl, 3 gümüş və 1 bürünc medala sahib olublar.

***Taekvondo***



## *"Sofia open" turnirində 1 qızıl və 1 bürünc medal*

Bolqarıstanın paytaxtı Sofiyada taekvondo üzrə beynəlxalq turnir keçirilib. Turnirdə altı idmançı ilə mübarizə aparan gənclərdən ibarət Azərbaycan yığması bir qızıl və bir bürünc medala sahib olub.

Komandamızın üzvü Xanoğlan Kərimov (51 kq) "G1" kateqoriyalı yarışda rəqiblərindən üstün olaraq turnirin qızıl medalına layiq görülüb. Onun komanda yoldaşı Bəhruz Quluzadə (48 kq) isə yarımfinaladək irəliləsə də, həlledici mərhələyə yüksələ bilməyib və bürünc medalla kifayətlənib.

Turnirin qalibi olan idmançılar 10 reytinq xalı qazanıblar.

Gənc taekvondoçularımız turnirdə baş məşqçi Məmməd Abdullayevin rəhbərliyi altında iştirak ediblər.

# Ədalətsizliyin qarşısını yalnız ədalətlə almaq lazımdır



***Dilqəm Quliyev, professor***

Ədalət ərəb sözüdür. Özündə insaf, haqq, qərəzsizlik, doğruluq, düzlük və s. mənaları cəmləşdirir. Ədalətli oyunlar ideyası müasir Olimpiya Oyunlarının bərpasının ilk illərində meydana gəlib. Ədalətli oyunlarla bağlı beynəlxalq hərəkatın yaradılması isə ötən əsrin 60-cı illərinə aiddir. YUNESKO, Beynəlxalq İdman və Bədən Tərbiyəsi Komitəsi, Beynəlxalq İdman Jurnalistləri Assosiasiyası nümayəndələrinin 1963-cü ildə keçirdiyi seminarda ilk dəfə Ədalətli Oyunlar Təşkilatının təsis olunması təklifi verilib.

### "Fair Play" Hərəkatı və Azərbaycan

1963-cü il dekabrın 5-də Parisdə Ədalətli Oyunlar üzrə "Pyer de Kuberten" Fondu təsis edilmiş, 1973-cü il mayın 29-da isə bu fond Beynəlxalq Ədalətli Oyunlar Komitəsi (CİFP) adı almışdır. 1994-cü ildə İsveçrənin Sürix şəhərində Avropa Ədalətli Oyunlar Hərəkatı (EFPM- European Fair Play Movement) adlanan təşkilat yaradıldı.

Dünyada idman ölkəsi kimi tanınan Azərbaycanda bu sahənin inkişafı ilə yanaşı, ədalət prinsiplərinə riayət olunması da xüsusi diqqət mərkəzindədir. Beynəlxalq idman qurumlarının ölkəmizə göstərdiyi yüksək etimadın nəticəsidir ki, son vaxtlar respublikamızda bir sıra dünya və qitə miqyaslı mötəbər turnirlər keçirilir. Bu yarışların təşkili ölkəmizə səfər edən beynəlxalq idman qurumlarının nümayəndələri tərəfindən çox yüksək qiymətləndirilib. Bunun səbəblərindən biri həmin yarışların yüksək səviyyədə təşkil edilməsidirsə, digər səbəbi də ədalətli oyun prinsiplərinə ciddi əməl olunmasıdır.

Hazırda Avropa Ədalətli Oyunlar Hərəkatında 40 dövlət təmsil olunur. Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası (Az.ƏOK) 1997-ci ildə yaradılıb. Ölkəmiz 1998-ci ildən AƏOH-nın üzvüdür. 2000-ci ildən etibarən bu təşkilata Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev rəhbərlik edir. Komissiya yaranan vaxtdan ölkəmiz Avropa Ədalətli Oyunlar Hərəkatının bütün tədbirlərində yaxından iştirak edir.

Az.ƏOK-un qitə təşkilatı ilə əlaqələri də yüksək səviyyədə qurulub. Komissiya yaranan vaxtdan ölkəmiz AƏOH-un bütün tədbirlərində, o cümlədən qurumun Konqres və Baş Assambleyalarında fəal iştirak edir.

### Məqsəd harmonik inkişafa və mədəni davranışa nail olmaqdır

2009-cu ildə AƏOH-un XV Konqres və Assambleyası paytaxtımızda yüksək səviyyədə keçirilib. Həmin il ölkəmizə səfər edən AƏOH-un 8 nəfərdən ibarət rəsmi nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev qəbul edib. Qəbul zamanı gündəlik həyatda və idman fəaliyyətində Olimpiya tərbiyəsinin, ədalətli oyunlarla bağlı dəyər və prinsiplərin vacibliyinə yönələn bütün təşəbbüslərə, verdiyi hərtərəfli dəstəyə görə dövlətimizin başçısına AƏOH-un ali mükafatı - "Şərəf" nişanı təqdim olunub.

Bakıda Avropa "Fair Play" Hərəkatının və Beynəlxalq "Fair Play" Komitəsinin birgə konqresi və Avropa "Fair Play" Hərəkatının 21-ci Assambleyası keçirilib. Azərbaycanda idmanın inkişafına və Ədalətli Oyunlar Hərəkatını dəstəklədiyinə görə dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Beynəlxalq Ədalətli Oyunlar Hərəkatının xüsusi medalı ilə mükafatlandırılıb.

2015-ci ildə BƏOH-un prezidenti Jeno Kamuti AzƏOK-un sədri Xəzər İsayevi beynəlxalq və Avropa qurumları ilə yaradılan sıx əməkdaşlığa görə BƏOH-un medalı ilə təltif edib.

Azərbaycan Ədalətli Oyunlar Komissiyası ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində mühüm tədbirlər həyata keçirir. Qurum cəmiyyətdə ədalət prinsiplərini dəstəkləyən, respublikada idman ictimaiyyətinin maraqlarını müdafiə edən bir təşkilat kimi fəaliyyət göstərir. Ədalətli Oyunlar Komissiyasının əsas məqsədi gənc nəslin harmonik inkişafına nail olmaq, bədən tərbiyəsi və idmanda ədalətli mübarizə ruhunu yüksək mədəni davranış qaydalarını aşılamaqdan ibarətdir.

İdman təkcə nəticə, qələbə və ya uğurdan ibarət deyil, onun həm də sülhün bərqərar olunması, təhlükəsizliyin təmin edilməsi, mədəniyyətlər və dinlər arasında dialoqun yaradılmasında çox mühüm bir vasitədir.

### Onlar sağlam rəqabətin təbliğinə və mənəvi dəyərlərin qorunmasına cavabdehdirlər

Yeniyetmə və gənclərə, gələcəyin Olimpiya, dünya və Avropa çempionlarına ədalətli olmaq anlayışı kiçik yaşlarından aşılanmalıdır. İdmanda ədalətdən söz düşəndə, hakimlərlə bərabər məşqçilər barədə də düşünürsən.

Məşqçilərin işi çətin və eyni zamanda məsuliyyət tələb edən işdir. Gənclərin idmana marağının artmasında və bu sahənin populyarlıq qazanmasında yaxşı məşqçilərin xidməti böyükdür. Məşqçilərin səviyyəsinin yüksək olması, onların obyektivliyi, məşqçiliyin sirlərini dərindən bilmələri keçirilən yarışları daha baxımlı edir. Məşqçilərin əsas məqsədi idmançılarda mənəvi və əxlaqi keyfiyyətlərin inkişafını, habelə, ədalətli mübarizə prinsipləri aşılamaq olmalıdır. Məşqçilər idmançıların səhhətlərinin qorunması və onların həyat tərzinin yaxşılaşdırılması üçün xüsusi məsuliyyət daşıyırlar. Onlar həm də idman yarışlarında sağlam rəqabətin təbliğinə və mənəvi dəyərlərin qorunmasına cavabdehdirlər. Məşqçilər dopinqə qarşı mübarizədə, zorakılığın, bərabərsizliyin və haqsızlığın qarşısının alınmasında fəal olmalıdırlar.

Maraqlıdır ki, keçmiş dövrlərdə yarışlar zamanı idmançılar istənilən yolla, nəyin bahasına olursa-olsun qələbə qazanmağı qarşıya məqsəd qoyurdular. İndi isə yarışlarda qaydaların tətbiq olunması və ona mütləq şəkildə əməl olunması ədalətsizliyin qarşısını alır. Ədalətli idman prinsiplərinə zidd halların baş verməsi isə, əksinə yeniyetmə və gənc idmançıların daha tez idmanla vidalaşmalarına, onların bu sahəyə maraqlarının azalmasına gətirib çıxarır ki, bu da idmanın inkişafına mənfi təsir göstərir. Belə hallarda, ilk növbədə məşqçilərin köməyinə ehtiyac duyulur.

İdmançıları ədalət prinsiplərinə riayət etməyə həvəsləndirməkdə məşqçilərin də rolu əvəzsizdir. Məşqçi idmançıya qarşı həmişə diqqətli olmalı və əxlaqi, habelə, ədalətlilik prinsipi baxımdan onunla düzgün davranmalıdır.

Bu baxımdan dekabrın 15-də Azərbaycan Ədalətli Oyunlar Komissiyasının 2017-ci ildə "İslam Həmrəyliyi və Ədalətli Oyunlar" nominasiyasında təsis etdiyi mükafatı da yüksək qiymətləndirmək olar.

## *Paralimpiyaçılarımız güllə atıcılığı yarışlarında bacarıqlarını nümayiş etdiriblər*

Azərbaycan Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə martın 10-da Bakı Atıcılıq Mərkəzində güllə atıcılığı üzrə turnir keçirilib.

Turnirin keçirilməsində məqsəd martın 19-dan 26-dək Birləşmiş Ərəb Əmirliklərinin Al-Əid şəhərində keçiriləcək Dünya Kubokuna hazırlıqdır.

Yarışda milli komandanın qadın və kişi idmançıları qüvvələrini sınayıblar.

Qadınların yarışında 538 xalla Aybəniz Babayeva fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Gülnarə Niftəliyeva (197,8) ikinci, Vüsalə Kərimova (177,1) isə üçüncü yeri tutublar.

Kişilərin mübarizəsində isə Kamran Zeynalov 553 xalla birinci yerin sahibi olub. Yarışda 227,2 xal toplayan Elşad Məmmədov ikinci, aktivinə 222,4 xal yazdıran Əkbər Muradov isə üçüncü yerdə qərarlaşıblar.

Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov turnirin əhəmiyyətini



yüksək qiymətləndirərək, yarışa ev sahibliyinə görə Bakı Atıcılıq Mərkəzinin rəhbərliyinə minnətdarlığını bildirib. Dünya Kubokuna hazırlıq prosesindən danışan federasiya prezidenti bu baxımdan turnirin əhəmiyyətini xüsusi vurğulayıb. Qalibləri təbrik edən İlqar Rəhimov qarşıdakı yarışlarda idmançılara uğurlar arzulayıb.

Sonda qaliblərə kubok və medallar təqdim olunub.

Olimpiya dünyası

13 - 19 mart 2018



# XXIII Qış Olimpiya Oyunları:

## *idmanın və Olimpiya hərəkatının növbəti mərhələsi, yaxud tarix olduğu kimi*

*(əvvəli 1-ci səhifədə)*

Son dövrlərdə siyasi gedişləri birmənalı qarşılanmayan Şimali Koreyanın idmançılarının bu oyunlarda Cənubi Koreya idmançıları ilə birgə yarışlarda iştirakı, eyni zamanda 229 şimali koreyalı qadının yarışlar zamanı qeyri-adi tamaşaçı manevrləri, sinxron hərəkətləri diqqətçəkən məqamlardan biri idi. Əlbəttə, dünyanın inkişaf tarixi göstərir ki, son nəticədə sülh və həmrəylik prinsipi qalib gələcəkdir. Ən demokratik liderlər də, ən qatı diktatorlar da bunun fərqindədirlər. Olimpiya oyunları məhz bu dəyərlərin müəyyən zaman kəsiyində reallaşması üçün ən yaxşı fürsətdir. Bu fürsətdən yararlanmaqla dünyada davamlı sülhə, əmin-amanlığa və həmrəyliyə nail olmaq mümkündür. Bu mənada Olimpiya oyunlarının keçirilməsi ideyası bəşər tarixinin ən böyük kəşflərindən biridir. Çünki müasir dövrdə elə bir ümumdünya tədbiri yoxdur ki, bu tədbir siyasi, sosial, mədəniyyət və incəsənət sahəsində öz əhatə dairəsinə, əhəmiyyətinə, ümumbəşəri dəyərlərə sadiqliyinə görə Olimpiya oyunları ilə müqayisə oluna bilsin. Yay və Qış Olimpiya Oyunları burada təmsil olunan ölkələrin və atletlərin, proqrama daxil olan idman növlərinin sayına görə bir-birindən fərqlənsə də, mahiyyət etibarilə eyni məqsədə, eyni amala xidmət etdiyindən bütün dünyanın diqqət mərkəzində olur. Cənubi Koreyanın qış turizm mərkəzlərindən biri olan Pxençxan şəhərinin fevralın 9-dan 25-dək ev sahibliyi etdiyi XXIII Qış Olimpiya Oyunları da bütün dünyanın diqqət mərkəzində olan ümümbəşəri idman bayramlarından biri idi.

XXIII Qış Olimpiya Oyunlarına və XII Qış Paralimpiya Oyunlarına Cənubi Koreyanın Pxençxan şəhərinin ev sahibliyi etmək hüququnun verilməsi barədə qərar Beynəlxalq Olimpiya Komitəsinin 2011-ci il iyulun 6-da Cənubi Afrika Respublikasının Durban şəhərində keçirilən 123-cü sessiyasında verilmişdi. Belə ki, indiyədək bir dəfə - 1988-ci ildə Yay Olimpiya Oyunlarının ev sahibi olan Cənubi Koreya "Ağ Olimpiada"ya ev sahibliyi etmək hüququnu da qazanmışdı. Səsvermənin son mərhələsindəki nəticələrdə Pxençxan şəhəri Almaniyanın Münhen və Fransanın Ansi şəhərlərini üstələməyi bacarmışdı. Namizədlərdən Fransanın Ansi şəhəri ilk dəfə müraciət edənlərdən idi. İkinci namizəd Münhen şəhəri isə ilk dəfə Olimpiya Oyunlarına 1972-ci ildə ev sahibliyi edib və o vaxtdan burada Olimpiada keçirilməyib. Durban sessiyasındakı səsvermədə qalib gələn Pxençxan şəhəri isə namizədlik mübarizəsində artıq 3-cü dəfə idi ki, iştirak edirdi. Maraqlıdır ki, BOK-un keçmiş prezidenti Jak Roqq 2006-cı il iyunun 22-də XXII Qış Olimpiadasına namizəd 7 şəhərdən yalnız 3-nün - Soçi, Zalsburq və Pxençxan şəhərlərinin adını seçmişdi. Görünür, təcrübəli idman xadimi bu şəhərin ev sahibliyi ilə bağlı perspektivlərini görürdü. Pxençxan həmin mübarizədə rəqibi Soçiyə cəmi 4 səslə məğlub oldu. Vankuver-2010 Olimpiadasına seçkilərdə isə 3 səslə mübarizədən kənarlaşmışdı. Qeyd etmək lazımdır ki, Qış Olimpiadası Asiya ölkələri arasında indiyədək yalnız Yaponiyada 2 dəfə təşkil edilib. "Ağ Olimpiada" bir dəfə Sapporoda (1972-ci il), bir dəfə isə Naqanoda (1998-ci il) keçirilib. Maraqlıdır ki, I Qış Olimpiya Oyunları da Fransanın kurort şəhəri Şamonidə keçirilmişdi. Şamoni Olimpiya Oyunlarında isə 16 ölkədən 280 idmançı iştirak etmişdi.

XXIII Qış Olimpiya Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün Pxençxanda ümumi tamaşaçı tutumu 135 min nəfər olan 13 idman obyekti idmançıların istifadəsinə verilmişdi. Olimpiadanın keçirildiyi Pxençxan şəhəri sahəsinə görə ölkənin 3-cü şəhəridir. Bu şəhər Txebeksan dağının ətəklərində paytaxtdan 180 km aralıda yerləşir və ölkənin mühüm əhəmiyyətli qış turizm mərkəzlərindən biridir. 2013-cü ilin yanvar ayında burada Xüsusi Ümumdünya Qış Olimpiya Oyunları (əqli cəhətdən zəif inkişaf etmiş insanlar üçün) keçirilib.

Pxençxan-2018 Olimpiadasında dünyanın 92 ölkəsindən 2925 idmançı 7 qış idman növü üzrə medallar uğrunda mübarizə aparırdı. Bu Olimpiadada bir medalın çəkisi 586 qramdan artıqdır ki, bu da Qış Olimpiya Oyunları tarixində çəkisinə görə ən ağır medaldır.

Pxençxan-2018 Olimpiadası tamaşaçılar baxımından da geri qalmadı. Belə ki, bu oyunları dünyada təqribən 3 milyarddan artıq tamaşaçı izlədi. Olimpiadada ən çox - 242 idmançı ilə ABŞ birinci, 226 idmançı ilə Kanada ikinci, 169 idmançı ilə isə İsveç üçüncü yerdə idi. Ev sahibi Cənubi Koreya isə 122 atletlə təmsil olunurdu. Qış Olimpiya Oyunlarında yarışlarda əsas rəqiblərdən olan Rusiya 168 idmançı ilə iştirak etsə də, dopinq qalmaqalına görə Pxençxan-2018-də öz bayrağı altında deyil, Beynəlxalq Olimpiya Komitəsinin bayrağı altında mübarizə aparırdı.




Beləliklə, Cənubi Koreyanın ev sahibliyi etdiyi və bütün dünyanın həyəcanla gözlədiyi XXIII Qış Olimpiya Oyunlarının fevralın 9-da Pxençxan Olimpiya Stadionunda açılış mərasimi keçirildi. Qeyd edək ki, bu idman qurğusu Pxençxan-2018 Qış Olimpiya və Paralimpiya Oyunlarının açılış və bağlanış mərasimləri üçün nəzərdə tutulmuşdu. Olimpiya Stadionu Alpensiya kurortundan cəmi 2 kilometr şimalda yerləşirdi. Cənubi Koreya hökuməti 2017-ci il sentyabrın 17-də istifadəyə verilən və 5 bucaqlı formasında olan bu qurğu üçün təxminən 78 milyon ABŞ dolları xərcləmişdi. "Ağ Olimpiada"nın 35 min tamaşaçı tutumu olan Pxençxan Olimpiya Stadionunda keçirilən açılış mərasimində Təşkilat Komitəsinin sədri Li Hi Bom, Beynəlxalq Olimpiya Komitəsini prezidenti Tomas Bax çıxış edərək bu möhtəşəm idman bayramının açılışı münasibətilə bütün dünyanın idmansevərlərini, bynəlxalq idman qurumlarının və rəsmi nümayəndə heyətinin rəhbərlərini, dünyanın 92 ölkəsindən Pxençxan-2018 Olimpiadasında iştirak edən idmançıları təbrik etdilər. Daha sonra idmançılar və hakimlər adından andiçmə mərasimləri keçirildi. Beynəlxalq Olimpiya Komitəsinin bayrağı tanınmış idmançılar tərəfindən təntənəli surətdə Olimpiya Stadionuna gətirilərək Olimpiya himninin sədaları altında qaldırıldı. Dünyanın 92 ölkəsindən olan atletlər paraddan keçdilər. Azərbaycanın bayrağını avstriyalı legioner idmançımız Patrik Braxner aparırdı. Olimpiadanın rəsmi talismanı ağ pələng Suxoranq, qara ayı Pandabi idi. Pxençxan-2018-in məşəli 108 gün ərzində 7,5 min insanın vasitəsilə 2018 km məsafə qət edərək Olimpiya Stadionuna gətirildi və məşəl alovlandırıldı. Açılış mərasimi rəngarəng, maraqlı proqramlarla müşayiət olunaraq böyük bayram əhval ruhiyyəsi yaratdı.

Həm yay, həm də qış Olimpiya oyunlarında yaddaqalan məqamlardan biri də, oyunların açılış mərasimindən öncə "Olimpiya kəndi"ndə iştirakçı ölkələrin bayrağının qaldlrılma mərasimlərinin keçirilməsidir. Cənubi Koreyanın Pxençxan şəhərinin ev sahibliyi etdiyi XXIII qış Olimpiadasının açılış mərasimindən bir neçə gün qabaq "Olimpiya kəndi"ndə Azərbaycanın dövlət bayrağının da qaldırılma mərasimi keçirildi. Müxtəlif ölkələrin nümayəndələrinin də iştirakı ilə keçirilən bu tədbirdə ölkəmizin nümayəndə heyətinin şef-de-missionu Anar Bağırov, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, Milli Olimpiya Komitəsinin məsul işçisi Həsənağa Rzayev və digər rəsmi şəxslər iştirak ediblər. Sevindirici və qürurverici bir hal idi ki, bu Olimpiadada iştirak edən 92 ölkənin bayrağı ilə bir cərgədə Azərbaycanın da dövlət bayrağı dalğalanırdı.

## MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə "Olimpiya kəndi"ndə

Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən XXIII Qış Olimpiya Oyunlarında ölkəmiz yalnız bir idmançı ilə deyil, həm də rəsmi nümayəndə heyəti ilə təmsil olunurdu. Bu, bir daha onu göstərirdi ki, Azərbaycan, həqiqətən də, Olimpiya ideallarına daim sadiq olmaqla, dünyanın aparıcı idman dövlətlərindən biri kimi öz önəmli mövqeyini qoruyub saxlayır. Fevralın 10-da Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, MOK-un baş katibinin müavini Azər Əliyev, Azərbaycan Dağ Xizəkçiliyi Federasiyasının prezidenti Rauf Xəlilov "Olimpiya kəndi"nə gələrək, idmançılar üçün yaradılmış şəraitlə tanış olmuş, burada məskunlaşan idmançımız Patrik Braxner və rəsmi nümayəndə heyətinin üzvləri ilə görüşmüşlər. Azərbaycan nümayəndə heyətinin məskunlaşdığı mənzil qərargahda keçirilən görüşdə nümayəndə heyətinin şef-de-missionu Anar Bağırov oyunların gündəlik proqramları, Olimpiadada ölkəmizi slalom yarışlarında təmsil edən idmançımızın məşqləri, hazırlığı barədə və Azərbaycan nümayəndə heyətinə yaradılan şəraitlə bağlı məlumat vermişdir. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmana və Olimpiya Hərəkatına göstərdiyi diqqət və qayğıdan danışmışdır. O, əmin olduğunu bildirmişdir ki, qış idman növləri bazasından səmərəli istifadə etməklə yerli idmançıların da yetişməsinə diqqət artırılacaq və ölkəmiz növbəti Qış Olimpiya Oyunlarında daha çox idmançı ilə təmsil olunacaqdır. Görüşdə MOK-un baş katibinin müavini Azər Əliyev ölkəmizdə bütün idman növlərinin yüksək səviyyədə inkişaf etdiyini, qış idman növlərinin də bu inkişafın sıralarına tezliklə qoşulacağına inandığını bildirmişdir. O, Tokio-2020 Olimpiadasında atletlərimizin, eyni zamanda ağırlıqqaldıranlarımızın yüksək nəticələr göstərəcəyinə əminliyini vurğulamışdır. Görüş zamanı ölkəmizi təmsil edən idmançı Patrix Braxner slalom yarışlarında uğur qazanmaq üçün öz imkanlarından səmərəli istifadə etməyə çalışacağını, ona göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirmişdir. Görüşdə qonaqlar Pxençxan-2018-in məşəlinin maketi ilə tanış olmuş və xatirə şəkli çəkdirmişlər.

## Seulda idman nazirlərinin görüşü keçirildi

Pxençxan-2018 Olimpiadası zamanı Cənubi Koreyanın paytaxtı Seulda bu ölkənin Mədəniyyət, Gənclər və Turizm Nazirliyinin təşkilatçılığı ilə idman nazirlərinin də görüşü keçirildi. Görüşdə "İdman dəyərlərinin cəmiyyətdə inkişafı" mövzusunda müzakirələr aparıldı. "Dəyirmi masa" ətrafında keçirilən görüşü Cənubi Koreyanın mədəniyyət, gənclər və turizm naziri Do Jonguhan açaraq qeyd etdi ki, idman dəyərləri hər bir cəmiyyətdə sağlam mühitin, qarşılıqlı əlaqələrin, həmrəylik və dostluq münasibətlərinin formalaşmasında mühüm amillərdən biridir və belə görüşlərin keçirilməsi böyük əhəmiyyətə malikdir. İdman nazirlərinin görüşündə Azərbaycanı gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov təmsil edirdi. O, görüşdə çıxış edərək ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən idman sahəsində həyata keçirilən tədbirlər barədə geniş məlumat verdi. Bildirdi ki, Azərbaycanda idmana və Olimpiya hərəkatına dövlətimizin başçısı İlham Əliyev tərəfindən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq yarışlar barədə də məlumat verən nazir müavini qeyd etdi ki, Azərbaycanda idmanın inkişafı və Olimpiya hərəkatının genişlənməsi kütləvi xarakter aldığından idman dəyərləri cəmiyyətdə aparıcı mövqelərdən birinə malikdir.

Sonra Ümumdünya Antidopinq Agentliyinin (WADA) prezidenti Kreyq Ridi, Türkiyənin gənclər və idman naziri Osman Aşkın Bak, Fransanın idman naziri Laura Flessel, Qazaxıstanın mədəniyyət və turizm naziri Arıstanbek Muxamediulı, Monqolustanın təhsil, mədəniyyət, elm və idman naziri Sedenbal Sogzolma, Serbiyanın gənclər və idman naziri Vanja Udoviçic, Gürcüstanın mədəniyyət və idman naziri Mixail Georqadze və başqaları qeyd etdilər ki, belə görüşlərin keçirilməsi, müzakirələrin aparılması ölkələrin idman qurumları arasında işgüzar və qarşılıqlı əlaqələrin qurulmasına xidmət etməklə yanaşı, birgə səylər nəticəsində idman dəyərlərinin cəmiyyətdə daha kütləvi surətdə yayılmasına şərait yaradır.

## Azərbaycanın Cənubi Koreyadakı fövqəladə və səlahiyyətli səfiri "Olimpiya kəndi"ndə oldu

Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən XXIII Qış Olimpiya Oyunları kəskin hava şəraitindən asılı olmayaraq, maraqlı yarışları, rekordları və Asiya qitəsinin özünəməxsusluğu ilə davam edirdi. Qış Olimpiadasının "hərarətini" artıran amillərdən biri də həm atletlərin, necə deyərlər, ekstremal şəraitdə qələbə uğrunda apardıqları mübarizə, həm gözlənilməz nəticələr və rekordlar, həm də rəsmi şəxslərin "Olimpiya kəndi"ni ziyarət etməsidir. Azərbaycan nümayəndə heyətinin mənzil-qərargahının yerləşdiyi, eyni zamanda ölkəmizi təmsil edən idmançımızın məskunlaşdığı "Olimpiya kəndi" oyunlar zamanı qonaqları qarşılamaq üçün ən münasib yer idi. Bir neçə gün öncə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, MOK-un baş katibinin müavini Azər Əliyev və Azərbaycan Dağ Xizəkçiliyi Federasiyasının prezidenti Rauf Xəlilov idmançıların məskunlaşdığı bu məkanda olmuşdular. "Olimpiya kəndi"ni Azərbaycanın Cənubi Koreyadakı fövqəladə və səlahiyyətli səfiri Rəmzi Teymurov da ziyarət etdi. Ölkəmizin səfiri "Olimpiya kəndi"ndə Azərbaycanın dövlət bayrağının ucaldıldığı meydanla, atletlərə yaradılan şəraitlə tanış olduqdan sonra, ölkəmizin nümayəndə heyətinin mənzil-qərargahına gəldi. Burada səfirə Azərbaycan nümayəndə heyətinin şef-de missionu Anar Bağırov yarışların proqramı, ölkəmizi təmsil edən atletimizin məşq prosesi və slalom yarışlarının keçirilmə tarixi barədə ətraflı məlumat verdi. Azərbaycanın Cənubi Koreyadakı fövqəladə və səlahiyyətli səfiri Rəmzi Teymurov ölkəmizdə idmanın və Olimpiya hərəkatının inkişafından bütün dünyanın xəbərdar olduğunu, bu sahədə böyük uğurların qazanıldığını vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycanda idman və Olimpiya hərəkatı bundan sonra da yüksək səviyyədə inkişaf edəcək, idmançılarımız həmişə olduğu kimi, daha böyük nailiyyətlər əldə edəcəklər.



## MOK-un əməkdaşı Olimpiya Yayım Xidmətinin rəsmiləri ilə görüşdü

Pxençan-2018-də iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibində olan Milli Olimpiya Komitəsinin (MOK) marketinq idarəsinin rəisi Mehman Kərimov Olimpiada zamanı Olimpiya Yayım Xidmətinin (Olympic Broadcasting Sercices) və Olimpiya Kanalının (Olympic Channel) rəsmiləri ilə görüşmüşdür. İlk görüş Olimpiya Yayım Xidmətinin telekommunikasiya direktoru Mario Reislə olmuşdur. Xidmətin əməkdaşları kosmik peyklər və fibro optik vasitələrlə dünyanın 160-dan artıq ölkəsində yayımlanan Qış Olimpiya Oyunlarının yayımı haqda geniş məlumat vermişlər.

*(ardı 5-ci səhifədə)*

(əvvəli 4-cü səhifədə)

Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları zamanı Olimpiya Yayım Xidmətinin və Olimpiya Kanalının əhəmiyyətli rol oynadığını bildirən Mehman Kərimov göstərdikləri dəstəyə və xidmətlərə görə Mario Reisə və xidmətin bütün əməkdaşlarına minnətdarlığını bildirmişdir. Məhz bu dəstəyin nəticəsi olaraq Bakı-2017 İslam Həmrəyliyi Oyunlarının gündəlik xəbərlər proqramı Olimpiya Kanalı vasitəsilə dünyanın bütün ölkələrinə yayımlanmışdır. Görüşdə tərəflər televiziya yayımı və rəqəmsal marketinq sahəsində əməkdaşlığı genişləndirmək niyyətində olduqlarını ifadə etmişlər. Daha sonra 2019-cu ildə Bakının ev sahibliyi edəcəyi Avropa Yeniyetmələrinin Olimpiya Festivalı və Olimpiya oyunları çərçivəsində planlaşdırılmış bir sıra müştərək layihələr müzakirə edilmişdir.

Növbəti görüş Olimpiya Kanalının biznes xidmətləri şöbəsinin rəhbəri Xose Dominqiyez (Jose Dominguez), həmçinin Milli Olimpiya Komitələri və Beynəlxalq Federasiyalar üzrə baş menecer Con Palfrey (John Palfrey) ilə keçirilmişdir. Tərəflər əsasən Olimpiya Gündəliyi-2020 sənədinin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, MOK-un marketinq fəaliyyətinin genişləndirilməsi və bu istiqamətdə görüləcək işləri müzakirə etmişlər. Xose Dominqiyez Bakı-2017 İslam Həmrəyliyi Oyunları çərçivəsində Azərbaycan tərəfi ilə imzalanmış çoxtərəfli memoranduma uyğun olaraq sosial media platformalarının və digər internet resurslarının idarə olunmasında, rəqəmsal arxivləşdirmədə, kontent yaradılmasında və bu kimi başqa sahələrdə MOK-a hər cür texniki dəstəyin göstərilməsi üçün hazır olduqlarını söyləmişdir. Azərbaycanın regiondakı aparıcı rolunu nəzərə alaraq, bir sıra layihələrin həyata keçirilməsində qonşu ölkələrin Milli Olimpiya Komitələri ilə birgə əməkdaşlığı da hər iki tərəf razılıqla qarşılamışdır.

Qeyd edək ki, belə görüşlərin keçirilməsi qarşılıqlı əməkdaşlığın daha da möhkəmlənməsinə, Olimpiya hərəkatının təbliği sahəsində müştərək layihələrin uğurla həyata keçirilməsinə şərait yaradır. Belə ki, növbəti görüş Olimpiya Gündəliyi-2020 sənədinin tələb və tövsiyələrinə uyğun olaraq, Olimpiya Həmrəyliyi Fondu və Beynəlxalq Olimpiya Komitəsinin Televiziya Marketinq Xidmətinin rəsmiləri ilə keçirilmişdir.



# XXIII Qış Olimpiya Oyunları:

## *idmanın və Olimpiya hərəkatının növbəti mərhələsi, yaxud tarix olduğu kimi*

Cənubi Koreyada keçirilən "Ağ Olimpiada" dövründəki dəyişkən hava şəraiti oyunların proqramına ciddi təsir etməsə də, ana təbiət təşkilatçıları bəzi güzəştlərə getməyə məcbur etdi. Amma bu güzəştlərin bütövlükdə Olimpiadanın mənzərəsinə elə bir ciddi təsiri olmadı. Qış Olimpiya Oyunlarının tarixi ənənələri, demək olar ki, bu Olimpiadada yenidən təkrar edildi. Yəni əsasən qələbə uğrunda gərgin mübarizə, həmişə olduğu kimi, qış idman növlərinin inkişaf etdiyi ölkələrin atletləri arasında getdi. Medal qazanan ölkələrin ilk onluğu cox da ciddi dəyişikliyə məruz qalmadı. Bu oyunlarda favorit sayılan ölkələr öz şanslarını əldən vermədilər.

Pxençxan-2018 Olimpiadası həm də müxtəlif istiqamətlər üzrə çoxsaylı rekordların sayına görə də yadda qalan maraqlı olimpiadalardan biri idi. Bu rekordların bəziləri haqqında məlumatlar vermək oxucularımız üçün də maraqlı olardı. Məsələn, estafet yarışlarında Norveç komandasının heyətində yer alan Marit Bürgen qış olimpiadalarında qazandığı medalların sayını 13-ə (7 qızıl, 4 gümüş və 2 bürünc) çatdırmaqla, "Ağ Olimpiada"nın tarixində bu sayda medal qazanan ilk qadın idmançı oldu. Məlumat üçün bildirək ki, Yay Olimpiya Oyunlarında medallar qazanan xanımlar arasında yalnız bir idmançı xanım-keçmiş SSRİ təmsilçisi, gimnast Larisa Latınina qazandığı 18 (9 qızıl, 5 gümüş, 4 bürünc) Olimpiya medalı ilə M.Bürgeni qabaqlayır. XXIII Qış Olimpiya Oyunlarında 6 yeni ölkənin debütü Pxençxan-2018-in ilk rekordu kimi qeydə alınmışdı. Bu rekord nəticəsində XXIII Qış Olimpiadası həm iştirakçı ölkələrin, həm də iştirak edən idmançıların sayına görə digər qış Olimpiya oyunlarını arxada qoydu. Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən XXIII Olimpiadada ən yaşlı və ən gənc iştirakçılar da müəyyənləşmişdi. Belə ki, ən gənc atlet çinli Vu Menqdi (15 yaş) olsa da, 40 il kerlinq idman növü ilə məşğul olan 52 yaşlı kanadalı atlet Şeril Bernard "Ağ Olimpiada"nın ən yaşlısı adını almışdı.2010-cu ildə Vankuverdə keçirilən Qış Olimpiya Oyunlarında 37 medal qazanan ABŞ idmançıları bu nəticə ilə mütləq rekorda imza atmışdılar. Norveç komandası indiyədək iki qış Olimpiadasında (Lillehammer-1994 və Soçi-2014) ən çox 26 medal qazanmışdılar. Pxençxan-2018-də isə norveçlilər 39 (14 qızıl, 14 gümüş, 11 bürünc) medal qazanaraq həm medalların sayına görə ABŞ-ı, həm də öz ölkələrinin əvvəlki rekordunu üstələdilər. Xizəklə tramplindən tullanma yarışlarında mübarizə aparan 46 yaşlı Yaponiya idmançısı Noriaki Kasai özünün 8-ci olimpiadasında qüvvəsini sınayaraq, 1992-ci ildən sonra bütün qış Olimpiya oyunlarında iştirak etməklə bu oyunların tarixində iştiraka görə yeni rekord müəyyənləşdirdi. Kanadalı fiqurlu konkisürənlər Tessa Virçu və Skott Moyr da Pxençxanda keçirilən Olimpiadada buz üzərində rəqslərin qısa proqramında balların sayına (83,67) görə özlərinə məxsus olan dünya rekordunu yenilədilər.

### "Ağ Olimpiada" rekordlarla zəngin idi

Hələ Olimpiada başlamazdan əvvəl Pxençxan-2018 rekordlarla - həm iştirak edən ölkələrin, həm də idmançıların sayı ilə gündəmə gəlmişdi. Belə ki, Cənubi Koreyada keçirilən XXIII Qış Olimpiya Oyunlarında Ekvador, Eritreya, Kosovo, Malayziya, Nigeriya və Sinqapur tarixində ilk dəfə olaraq "Ağ Olimpiada"da iştirak edirdilər. Bu Olimpiadada 1 nəfər idmançı ilə çıxış edən 18 ölkədən biri də Azərbaycan idi. Ölkəmizi "Ağ Olimpiada"da 25 yaşlı avstriyalı idmançı Patrik Braxner dağ xizək idmanında (slalom üzrə) təmsil edirdi. Azərbaycan ilk dəfə 1998-ci ildə Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında 4 idmançı ilə təmsil olunub. 2002-ci ildə Solt-Leyk Sitidə yenə də 4 idmançı ilə, amma iki idman növündə iştirak etmişik. Turin-2006-da 2 idmançımız yalnız bir idman növündə qüvvəsini sınayıb. Bu, 2010-cu ildə Kanadanın Vankuver şəhərində keçirilən Qış Olimpiya Oyunlarında təkrar olunub. Soçi-2014 Qış Olimpiya Oyunlarında isə 4 idmançımız 2 idman növündə qüvvəsini sınayıb. Pxençxan-2018 ölkəmizin Qış Olimpiya Oyunlarında 6-cı dəfə iştirak etdiyi idman tədbiri idi.

### Olimpiadanın favoritləri və ya dopinq qalmaqalı

Pxençxan-2018 Olimpiadasında da medallar uğrunda mübarizə özündən əvvəlki "Ağ Olimpiada"larda olduğu kimi, əsasən qış idman növlərində favorit olan ölkələr arasında gedirdi. Bu, sanki bir ənənə halını alıb. Məsələn, Soçi-2014 Olimpiadasında medal qazanan ölkələr arasında ilk onluqda yer alanlar, Pxençxan-2018 Olimpiadasında da iki ölkə fərqi ilə (Rusiya və Belarusdan başqa) əsasən yenə də ilk onluqda qərarlaşıblar. Bu Olimpiadada ilk onluqda yer tutan ölkələr arasında, əgər belə demək mümkünsə, Rusiyanı və Belarusu Hollandiya və İsveç əvəzlədi. Soçi Olimpiadasında 29 medalla (11 qızıl, 9 gümüş, 9 bürünc) birinci yeri tutan Rusiya Pxençxan Olimpiadasını 17 (2-6-9) medalla 13-cü, müvafiq olaraq, Soçidə 6 medalla (5-0-1) 8-ci olan Belarus son qış Oyunlarını 3 medalla (2-1-0) 15-ci yerdə başa vurdu. Soçi və Pxençxan Olimpiadalarında Kanada, ABŞ və Hollandiya qazanılan medalların sayına görə fərqlənsələr də, medallar cədvəlindəki sırada öz mövqelərini dəyişmədilər. XXIII Qış Olimpiya Oyunlarında liderlik uğrunda əsas mübarizə Almaniya və Norveç komandaları arasında getdi. Müəyyən məqamlarda Almaniya önə çıxa bilsə də, son nəticədə Norveç üstünlüyü ələ aldı və 39 medalla (14-14-11) Pxençxan-2018-in qalibi oldu. Rusiya isə sanki "ev sahibliyi üstünlüyündən" istifadə edib Soçi Olimpiadasında birinci yeri tutduğu üçün həm fiziki (dopinqlə bağlı), həm də mənəvi cəhətdən (öz bayrağı altında yarışlarda iştirak etməsinə icazə verilmədi) cəzalandırıldı.



Bu məqamda dopinqlə bağlı bəzi məsələlərə toxunmaq yerinə düşərdi. Rio-2016 Yay Olimpiya Oyunlarında olduğu kimi, Pxençxan-2018-də də Rusiyanın, son nəticədə isə rus idmançılarının, necə deyərlər, haqlı və ya haqsız olaraq küncə sıxışdırılması heç də birmənalı qarşılanmayıb. Məlumdur ki, güclü rəqiblərin sıradan çıxması ilə (əlbəttə, dopinqə haqq qazandırmırıq) Olimpidalarda qələbə uğrunda güclü rəqabət zəifləyər, tamaşaçı marağı azala bilər. Ona görə də dopinqlə bağlı daha effektiv mübarizə üsulları tapmaq lazımdır. Fakt odur ki, köhnə mübarizə üsulları səmərəli nəticələrə gətirib çıxarmır. Dopinq labrintində həm beynəlxalq idman qurumları, həm də idmançılar ilişib qalırlar. Səbəblər isə müxtəlifdir. Təmiz idman, necə deyərlər, dopinq mafiyasının əlində sanki bir oyuncağa çevrilib. İdmançı karyerası və insan taleləri bir anda alt-üst olur. Bəlkə idmançıdan insanın fiziki imkanlarından artıq nəticə tələb etməklə onları bu yola vadar edirik? Bəlkə nəticələri dopinq hesabına şişirtməklə, real, əsl nəticələrə kölgə salmaq lazım deyil? Bəlkə dopinq qəbul edən və dopinq qəbul etməyən idmançıların yarışlarını, sadəcə olaraq, ayrıca keçirmək lazımdır? Hələlik sonu görünməyən bu qalmaqallarda isə ən çox itirən idmançılardır. Pxençxan-2018 Olimpiadasında da dopinq qəbulu üzündən öz "nəticəsi və medalı" ilə vidalaşan idmançılar da oldu. Kerlinq idman növündə medal qazanan rusiyalı atletin dopinqdə ilişməsi isə bu ölkənin Olimpiya ailəsindəki yerini və mövqeyini bir daha silkələdi. Mənəvi zərbə son nəticədə yenə də qələbə üçün illərlə məşq edərək əziyyət çəkən, özünü müəyyən zövqlərdən məhrum edən idmançıya dəydi. Unutmayaq ki, Olimpiya oyunları insan faktoru ilə birbaşa bağlı olan böyük idman bayramıdır. "Qurunun oduna yaş da yanır" deyiblər. Təəssüf ki, şimal qonşumuzun bir çox istedadlı idmançıları da məhz bu durumdadır. Hətta, Rusiya Prezidenti Vladimir Putinin "Ağ Olimpiada"dan öncə ölkəsinin atletlərini qoruya bilmədikləri üçün rusiyalı idmançılardan üzrxahlıq etməsi də, vəziyyəti dəyişmədi. Doğurdan da, kimsə, nədənsə sığortalanmayıb...

### Tarix olduğu kimi yazılır

Bu Olimpiada da ənənəvi olaraq, rekordlarla, maraqlı hadisələrlə, dopinq qalmaqalları ilə müşayiət olundu. Lakin son nəticədə yenə də ən güclülər qalib gəldi. Həmişə olduğu kimi, idmanın dəfələrlə sınaqdan çıxan bu fəlsəfəsi bütün dünyanın diqqət mərkəzində olan Pxençxan-2018 Qış Olimpiadasının da "hərarətinə" öz təsirini göstərmişdi. Bizim ölkəmiz və idmansevərlərimiz üçün maraqla olan isə Olimpiadanın proqramına daxil olan dağ xizəyi idmanının slalom növündə fevralın 22-də keçirilən yarışlar idi. Soyuq və küləkli hava şəraiti ilə müşayiət olunan slalom yarışlarında ölkəmizi 68-ci sıra nömrəsi ilə avstriyalı legionerimiz Patrik Braxner təmsil edirdi. Olimpiada zamanı iştirak etdiyi məşqlərdə ümidverici nəticələr göstərsə də o, rəsmi yarışda finişə çata bilmədi. Beləliklə, təmsilçimiz ilk cəhddə uğursuz çıxış etdiyindən, mükafatçıların müəyyənləşdirildiyi ikinci yürüşdə iştirak etmədi. Qeyd edək ki, legioner idmançımız Soçi-2014-də də eyni aqibətlə üzləşmişdi. Bu Olimpiadada 108 atletin qələbə uğrunda mübarizə apardığı slalom yarışının birinci cəhdində ümumilikdə, 52 idmançı finişə çatsa da, yarışda iştirak edən idmançıların yarıdan çoxu-56 dağ xizəkçisi finişə qədər gəlib çıxa bilməyib. Bu atletlər arasında isə kifayət qədər güclü, təcrübəli və böyük uğurları olanlarla yanaşı, hətta yarışların favoritlərindən biri sayılan məşhur Avstriya idmançısı Marcel Hirşer də var idi.

Bu bir daha onu göstərir ki, idmana bir qayda olaraq, fiziki güc faktoru prizmasından baxılsa da, bəxt və şans amilini də unutmaq ədalətsizlik olardı. O gün keçirilən dağ xizəkçiliyi idman növünün slalom yarışında həm fiziki gücü, həm də bəxti və şansı yetərli olan Norveç idmançısı Andre Myhrer slalomda hamıdan güclü olduğunu sübut edərək, qızıl medal qazandı.

Olimpiya oyunları haqqında ən operativ və dolğun məlumatları KİV-lər verir. Onlar həm oyunları təşkilatçılıq baxımından dəyərləndirir, həm atletlərin qələbə uğrundakı mübarizələrini işıqlandırır, həm də müxtəlif önəmli məqamlara diqqət yetirməklə, necə deyərlər, olimpiadaların tarixini yazırlar. Bu mənada jurnalistlərin planetimizin ən möhtəşəm idman tədbirində iştirakı həm də tarixi bir əhəmiyyətə malikdir. Əlbəttə, idman yarışlarının keçirildiyi məkanların texniki vəziyyəti, arenalar arasındakı məsafələr, nəqliyyatın yüksək dəqiqliklə fəaliyyət göstərməsi, könüllülərin bu oyunlara koreyalılara məxsus gülərüzlülüklə rəng qatması, bu və ya digər çoxsaylı maraqlı məqamlar Pxençxan-2018-in təşkilatçılığı haqqında ədalət naminə xoş sözlər söyləməyə imkan verir. Cənubi Koreyanın ev sahibliyi etdiyi bu Olimpiada idman yarışlarının keçirilməsi ilə məhdudlaşmırdı. Koreyalılar hər fürsətdə öz ölkələrinin adət-ənənələri, qədim tarixi kökləri, mədəniyyətləri, yaşlı insanlara böyük ehtiramları ilə bağlı məlumatları daha qabarıq şəkildə müxtəlif ölkələrdən gələn çoxsaylı qonaqlara çatdırmağa çalışırdılar. Onlar "Ağ Olimpiada"ya ev sahibliyi etmələri ilə fəxr edir və Olimpiadadan istifadə edərək, yuxarıda qeyd etdiyim kimi, koreyalıların milli dəyərlərini böyük ustalıqla, gülərüzlə təbliğ edirdilər. Olimpiada ərzində davamlı olaraq aparılan bu təbliğat bəzən insanda elə təsəvvür yaradırdı ki, onlar Olimpiadanı məhz bu dəyərləri təbliğ etmək naminə keçirirlər. Bir sözlə, Cənubi Koreyada dəfələrlə olan və bu ölkəyə ilk dəfə ayaq basan hər bir kəs bu maraqlı, sanki nağıllar diyarı olan ölkədən unudulmaz xatirələrlə ayrılırdı. Bu xatirələri Olimpiya dəyərlərinin də tanmamlaması doğrudan da, yaddaqalan, unudulmaz anlardır.

Pxençxan Olimpiya Stadionu Cənubi Koreyanın müvəqqəti idman qurğuları sırasında olsa da, daha bir ümumbəşəri şanlı tarixin yazılması meydanına çevrilərək, bu şərəfli missiyası ilə əslində dünyanın idman və Olimpiya hərəkatı tarixində silinməz iz qoydu. Öz odunu qədim Afinadan alan Pxençxan Olimpiya Stadionunda alovlanan bu məşəli yalnız Olimpiya oyunlarının rəmzi deyil, eyni zamanda oyunların keçirildiyi müddətdə öz alovunun işığı ilə müvəqqəti olsa da belə, dünyada müharibələri dayandıran, insanları sülhə, həmrəyliyə, əmin-amanlığa səsləyən müqəddəs bir alov kimi dəyərləndirmək olar. Olimpiyadaya bütün dünyanın böyük maraq göstərməsinin səbəbini insanların idmana olan sonsuz həvəsi ilə yanaşı, həm də Olimpiya oyunlarının ümumbəşəri mahiyyətində axtarmaq lazımdır. Ümumiyyətlə, Olimpiya oyunları həm idmanı, həm sülhü, həm də ümumbəşəri dəyərləri özündə birləşdirən dahiyanə kəşflərdən biridir.Pxençxan-2018 Qış Olimpiya Oyunları qədim və müasir tarixə qovuşdu. Beləliklə, dünyada idmanın və Olimpiya hərəkatının daha bir şanlı tarixi yazıldı. Dünyanın coxsaylı ölkələrindən gələn KİV nümayəndələri isə bu oyunların tarixini yazaraq, onun dəyərinə rəngarəng çalarlar qatacaqlar. Tarix isə olduğu kimi yazılır.



***Murad Qoçuoğlu,***
***Bakı-Pxençxan-Bakı***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Məktəb təhsillə birgə şagirdlərin sağlamlığının da qayğısına qalmalıdır

***Kütləvi idman cəmiyyətin fiziki tərbiyəsinin və mədəniyyətinin ayrılmaz hissəsidir. Kütləvi idmanın peşəkar idmandan fərqi, onun fiziki imkanlarını reallaşdırmaq, sağlamlığını möhkəmləndirmək və yaradıcılıq qabiliyyətini artırmaq istəyən milyonlarla insanı əhatə etməsindədir. Bu sahədə iştirakçılar üçün yaş, cins və hazırlıq səviyyəsi əhəmiyyət daşımır.***

***Hər birimiz bu vaxta qədər ən azı bir dəfə olsa da, kütləvi idman növü ilə məşğul olmuşuq. Eyni zamanda, bu idman növü bütün tədris proqramlarına da daxil edilib. Məhz bu formada idmanın tədris-tərbiyə, hazırlıq-təcrübə, fiziki sağlamlıq funksiyaları reallaşdırılır.***

***Kütləvi idman gənc nəslin fiziki baxımdan sağlam böyüməsini, ayrı-ayrı fərdin və ya kollektivin öz imkanlarını reallaşdırmasını həyata keçirir. Peşəkar idmanda yüksək nailiyyətlərin əldə olunması, beynəlxalq və ölkədaxili yarışlarda uğur qazanılması kütləvi idmanın inkişafına da stimul verir.***



## Kütləvi idman cəmiyyətin sosial həyatında aparıcı rol oynayır

Kütləvi idmanın insanların həyatındakı rolundan danışarkən bir məqamı unutmaq olmaz. Bu sahə hər bir fərdin sağlamlıq baxımından inkişafına böyük təsir edir. Kütləvi idman tərbiyəvi, vətənpərvər, kommunikativ funksiyaları yerinə yetirməklə, fərdləri və sosial qrupları birləşdirir. Bir sözlə, kütləvi idman koordinasiya funksiyasını yerinə yetirməklə, həm də sağlamlığa xidmət edir. Elə bu səbəbdən də müasir cəmiyyətdə bu sahənin kadrlarına böyük ehtiyac duyulur.

Kütləvi idman cəmiyyətin sosial həyatında aparıcı rol oynayır. Vətəndaşların kütləvi sağlamlığı, idmanın sosial sistemi özlüyündə digər sosial sistemlərə nəzərən sərbəstliyi ilə diqqət çəkir. Bu sahədə əminliklə, demək olar ki, idman sistemi birbaşa olaraq sağlamlıq, elm, mədəniyyət, tərbiyə və təhsil sistemləri ilə birbaşa əlaqədədir. İdman, həmçinin sosial-iqtisadi və siyasi proseslərə də əhəmiyyətli dərəcədə təsir edir. Bu baxımdan dövlətin sosial siyasətinin əsas vacib məqamı kimi idman həm də sağlam həyat tərzinin və kütləvi hərəkatların rəhni rolunda çıxış edir.

## İstək bir olanda məqsəd dəyişmir

Məktəbəqədər uşaqların, məktəblilərin və tələbələrin sağlamlığını qorumaq və möhkəmləndirmək, onlarda fiziki kamilliyə və sağlam həyat tərzinə olan tələbatı formalaşdırmaq bütün təhsil və məktəbəqədər tərbiyə müəssisələrinin ümumi məqsədidir. Məktəblilərin və tələbələrin fiziki cəhətdən tərbiyə olunmasına ümumi rəhbərlik Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Təhsil sistemində bədən tərbiyəsi və idman işlərinin təşkili, inkişafı və bu işlərin həyata keçirilməsinə nəzarət Təhsil Nazirliyinin Təhsil İdman Mərkəzi tərəfindən planlaşdırılır və təmin edilir.

Ümumtəhsil məktəblərində bədən tərbiyəsi dərsləri, ali və orta ixtisas müəssisələrində isə məcburi və aidiyyatı üzrə məşğələlər dövlət proqramı üzrə keçirilir. Ali və orta təhsil müəssisələrinin əsas məqsədi təhsil alan gənclərin sağlamlığını möhkəmləndirmək, onların fiziki cəhətdən sağlam olmalarına təsir göstərməklə bitmir. Eyni zamanda tədris prosesində bədən tərbiyəsinin nəzəri və metodiki əsaslar üzrə biliklərə, eləcə də, bədən tərbiyəsi və idman məşğələlərinin, tədbirlərinin təşkili və keçirilməsi üzrə təşkilatçılıq vərdişlərinə nail olmaq, onların ayrı-ayrı idman növləri üzrə ustalığının artırılmasına şərait yaratmaq da bu məqsədə xidmət edir.

Məktəbəqədər müəssisələrdə fiziki hərəkətlərin, oyunların həyata keçirilməsində əsas məqsəd gələcək nəslin sağlamlığının qorunmasıdır. Son illərin təcrübəsi göstərir ki, bədən tərbiyəsi və idmana maraq məhz uşaq bağçalarından başlanır. Bədən tərbiyəsi proqramı uşaqlar üçün aşağıdakı yaş qruplarını planlaşdırır:

Aşağı qrup: 3-4 yaşında olanlar;

Orta qrup: 5-6 yaşında olanlar;

Məktəbə hazırlıq qrupu: 6 yaşı tamam olanlar.

Uşaq bağçaları- körpələr evi və təhsil ocaqlarının işinə Respublika Təhsil Nazirliyinin, eləcə də, Təhsil İdman Mərkəzinin tərbiyə işləri üzrə metodistləri nəzarət edirlər.

## Məşğələlər körpələrin müsbət keyfiyyətlərini üzə çıxarır

Tərbiyəçilər və metodistlər hazırladıqları proqram və tövsiyələri tədris müəssisələrində həyata keçirirlər. İşlərin məzmununa hər gün keçirilən səhər gimnastikası, gəzintilər və həftədə 2 saatlıq xüsusi dərs proqramı daxil edilir. Gələcəyimiz olan körpələr fiziki cəhətdən möhkəm və sağlam olmalıdırlar.

İdmana maraq körpəlikdən aşılanmalıdır. Respublikamızda uşaqların normal inkişafının təmin edilməsi sahəsində bir sıra işlər görülür. Uşaqlar üçün yellənçəklər, basketbol, oyun meydançaları və gimnastika zalları hazırlanır. Mütəxəssislərin fikrincə, bu idman qurğuları nə qədər möhtəşəm və standartlara uyğun olsa da, sanitariya və gigiyena mütləq nəzərə alınmalıdır. Həmin idman qurğularında hərəkətlərin düzgün icrasına xüsusi diqqət verilməlidir. Bu isə uşaqlarda şən əhval-ruhiyyə yaradır. Məşğələlərin daha maraqlı keçməsi üçün müxtəlif idman ləvazimatlarından-toplardan, iplərdən, bədii gimnastikada idman çubuqlarından geniş istifadə olunur. Onlar uşaqlarda cəldlik, çeviklik, qüvvə, mərdlik və s. kimi müsbət keyfiyyətləri tərbiyə edir.

İmkan daxilində hər il uşaqlar arasında müxtəlif spartakiadalar keçirmək məqsədəuyğundur. Belə yarışlar uşaqların idmana cəlb edilməsində böyük rol oynayır. Ən başlıcası budur ki, bağçada keçirilən hər bir tədbir uşaqlar üçün böyük idman bayramına çevrilir. Bu isə uşaqların sağlamlığının möhkəmləndirilməsinə və idmanın onların arasında təbliğinə geniş imkan yaradır. Ümumtəhsil məktəblərində şagirdlərin fiziki inkişafına müsbət təsir göstərən formalardan biri də bədən tərbiyəsi məşğələləridir.

## Müəllimsiz heç bir sağlam cəmiyyətdən, yüksək inkişafdan söz gedə bilməz

Bədən tərbiyəsi müəllimləri və mütəxəssislər ümumtəhsil məktəblərində təhsil alan 6 yaşdan 17 yaşa qədər uşaqların sağlamlığını qorumaq üçün müxtəlif bədən tərbiyə tədbirlərinin həyata keçirilməsində məsuliyyət daşıyırlar. Bədən tərbiyəsi və idmanın hər bir şagirdin gündəlik həyatına daxil edilməsində məktəbin və bədən tərbiyəsi müəlliminin rolu böyükdür. Bu məsələ qəbul olunmuş təhsil qanununda öz əksini ətraflı tapıb.

Şagirdlər üçün bədən tərbiyəsi və idman tədbirləri müxtəlif formada həyata keçirilir. Müəllim dərsləri yüksək səviyyədə keçirməli, dərsdənkənar məşğələləri təşkil etməli, ayrı-ayrı idman növləri üzrə yığma komandaları rayon, şəhər birinciliyi yarışlarına hazırlamalı, məktəbdaxili yarışlara geniş yer verməlidir. Müəllimlər tədris prosesində yeni və mükəmməl vasitələrdən istifadə edirlər. Böyük tənəffüslərdə oyun və idman əyləncələrini acıq havada keçirmək daha məqsədəuyğun hesab edilir. Bu cür tədbirlər şagirdlərin səhhətinə və yaradıcılıqlarına müsbət təsir göstərir. Sinifdənkənar bədən tərbiyəsi və idman tədbirlərinin təşkili tədris prosesinin tərkib hissələrindəndir.

Ümumiyyətlə, məktəbdə bədən tərbiyəsi kollektivi, şurası və ya idman klubu idarə heyətinin üzvlərinin idmanın inkişafında rolu böyükdür. Şagirdlərin fiziki inkişafında pedaqoji kollektivin və turizmin rolu əvəzsizdir.

## Məktəb ilk növbədə şagirdlərin sağlamlığının qayğısına qalmalıdır

Şagirdlərin turizm yürüşünə çıxması kütləvi sağlamlıq tərbiyə işlərinin məqsədyönlü aparılması, ətraf mühiti öyrənmək, siyasi maarif və estetik baxımdan faydalıdır. Məlumdur ki, bədən tərbiyəsi və idmanın inkişafı və kütləviliyi üçün əsas şərtlərdən biri idman bazalarının olmasıdır. Bu bazalarda rəsmi yarışlar, yoldaşlıq görüşləri şagirdlərin idman ustalığının artırılmasına xidmət edir.

Bundan əlavə, yay istirahətinin səmərəli təşkili, müxtəlif tipli idman düşərgələrində bədən tərbiyəsi və idmana aid rəngarəng formalardan istifadə etmək imkanları da var. Təbiətin mənzərəli yerlərində uşaqları doğma diyarın təkrarolunmaz gözəlliyi ilə tanış etməklə onlara müsbət əxlaqi və iradi keyfiyyətlər aşılanır.

Düşərgələrdə ən faydalı tədbirlərdən biri də spartakiadalardır. Hər bir şagird asudə vaxtını zövqünə və imkanına uyğun keçirmək istəyir. Bu tərbiyə sisteminin böyük nailiyyətidir. Burada aparıcı rol məktəbə, onun pedaqoji kollektivinə və müəllimlərinə məxsusdur. Təcrübə göstərir ki, hansı məktəbdə bədən tərbiyəsi və idman işlərinə düzgün yanaşılırsa, orada daha yüksək keyfiyyət əldə olunur.

Pedaqoqların qənaətinə görə, tədris müəssisələrində təhlil və analiz aparılması təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Məktəb ilk növbədə şagirdlərin sağlamlığının möhkəmlənməsinin qayğısına qalır. Məktəblərimizdə mövcud əmək münasibətlərindəki islahatın aparılması da cox vacib məsələlərdən biridir. Müəllimlər burada həm metodist, həm təşkilatçı, həm də menecer olmağı bacarmalıdır. Dərslərin sinifdənkənar və məktəbdənkənar məşğələlərdə yüksək səviyyədə və maraqlı aparılması çox vacibdir. Məktəb şagirdləri rayon, şəhər birinciliyi yarışlarına hazırlamalı, onların sağlam olması üçün geniş təbliğat işləri aparmalıdır.

İmkan daxilində böyük tənəffüslərdə açıq havada mütəhərrik oyunlarımızdan ibarət tədbirlərin keçirilməsi şagirdlərə müsbət təsir etməklə, növbəti dərslərə də ruh yüksəkliyi ilə başlamalarına zəmin yaradır. Respublikamızda hər il keçirilən müxtəlif kütləvi yarışlar böyük əhəmiyyətə malikdir. Burada birinci sinifdən tutmuş 10-cu sinfə kimi şagirdlər iştirak edirlər. Bütün ümumtəhsil məktəblərində maddi-texniki bazanın olması çox vacib şərtlərdən biridir.

Bədən tərbiyəsi və idmanın məqsədi insanların sağlamlığını qoruyub möhkəmləndirmək, uzunömürlülüyə xidmət etməkdir. Bir sözlə, əsas məqsəd sağlam və hərtərəfli inkişaf etmiş şəxslər yetişdirməkdən ibarətdir. Bədən tərbiyəsi və kütləvi idmanın inkişafı dövlətin vəzifəsi olsa da, ictimai təşkilatlar, ilk növbədə, həmkarlar ittifaqları, kütləvi informasiya vasitələri və gənclər təşkilatları həmişə bu işdə fəallıq göstərirlər. Bədən tərbiyəsi kollektivləri, idman klubları, sağlamlıq müəssisələri Azərbaycanda bədən tərbiyəsi və idman hərəkatının bütün inkişaf mərhələlərində xalqa xidmət edir.

Bu gün idman təşkilatlarımız günü-gündən möhkəmlənir, burada işgüzar əhval-ruhiyyə yaradılır. İnsanların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtının səmərəli və mənalı təşkili, əmək kollektivlərinin mənzil-istismar idarələrinin, mədəniyyət və istirahət parklarının işini istiqamətləndirməkdə İdman Sağlamlıq Mərkəzlərinin və həmkarlar təşkilatlarının əməyi qiymətsizdir. Bədən tərbiyəsi mahiyyəti etibarilə fərdlərlə aparılan işdir, adamlara bacarıqla yanaşmaq, onların bu sahədə maraq və ehtiyaclarının qayğısına qalmaq, həssaslıq və diqqətlilik nümayiş etdirmək, şüuruna və qəlbinə təsir göstərməyi bacarmaq məsələləridir.

Bədən tərbiyəsi və idmanı əhalinin gündəlik məişətinə daxil etməyin müxtəlif üsul və formaları mövcuddur. Bura uşaq və gənclərin sağlamlığını möhkəmləndirmək, yüksək fiziki inkişafa nail olmaq, idmanın bu və ya digər növləri üzrə idman ustalığını artırmaq, müxtəlif səviyyəli idman yarışlarının keçirilməsi daxildir.

## Bədən tərbiyəsi və idmanın təbliğinin forma və üsulları çox rəngarəngdir

Bədən tərbiyəsi və idman haqqında qanunda qeyd edilir ki, müvafiq icra hakimiyyəti orqanları, bədən tərbiyəsi və idman yönlü ictimai birliklər kütləvi informasiya vasitələrində bədən tərbiyəsi və idmanın təşviqini və təbliğini təmin edir. İdmanda insan ləyaqətinin alçaldılması qadağan olunmuş stimullaşdırıcılardan istifadə olunmasının təbliği və tətbiqinə yol verilmir. İdman obyektlərində, habelə idman yarışlarının televiziya və radio ilə yayımı zamanı spirtli içkilərin və tütün məmulatlarının reklamı qadağandır.

Bədən tərbiyəsi və idman sahəsində çalışan mütəxəssislər həm fərdi, həm də kütləvi təbliğat işindən istifadə etməlidirlər. Bədən tərbiyəsi və idmanın təbliğinin forma və üsulları çox rəngarəngdir. Təbliğat işi insanlara, onların məslək və həyat tərzinə, maraq və zövqünə, mənəvi və fiziki keyfiyyətlərinin inkişafına təsir etməkdə geniş imkanlara malikdir. Təbliğat işində müəyyən cəhətlər vardır ki, bunları bilmək və gündəlik işdə onlara diqqət yetirmək təbliğat işini qüvvətləndirmək üçün vacib şərtlərdəndir. Məsələn, məktəbin idman zallarında, stadionlarda, idman meydançalarında, otaqlarda və dəhlizlərdə müxtəlif şüarlar, plakatlar, diaqramlar, normativ cədvəllər, idmançıların şəkilləri ilə bəzədilmiş stendlərdən istifadə edilməsi məqsədəuyğundur. Bütün bunlar uşaqlarda idmana məhəbbət aşılayır. İnsanlar, o cümlədən gənclər sağlam böyüməlidirlər. Xalqın sağlamlığı, onun gələcəyi deməkdir. İdman mütəxəssisləri, həkimlər, təbliğatçılar çalışmalıdırlar ki, əldə edilmiş sağlamlığı qorumaq və onun təbliğinə nail olmaqla, idmanı daha da inkişaf etdirsinlər. Təbliğat insanlar arasında möhkəm, dayanıqlı ünsiyyət, şəxsiyyətlərarası münasibətlərdə isə səmimi əhval-ruhiyyə yaradır, sağlam həyat tərzi, bədən tərbiyəsi və idmanın bu və ya digər növlərinə marağın yaranmasına əsaslı təsir edir. Bunun üçün əhalini, xüsusilə uşaq və yeniyetmələri bədən tərbiyəsi və idman işlərinə cəlb etmək üçün iş aparmaq, xüsusi təbliğat xarakterli bilik vermək vacibdir.

## Bol qələbə sevinci, estetik zövq...

İnsan cəmiyyətin başlıca məhsuldar qüvvəsidir. O, bütün sahələri idarə etməyə qadirdir. İdmana gəldikdə isə, o çox mürəkkəb bir fəaliyyət növü olmaqla bütün tamaşaların içərisində demək olar ki, ən çox azarkeş cəlb edən, təmənnasız, bol qələbə sevinci, estetik zövq bəxş edən bir sahədir.

İnsanın xarakteri, barmaq izləri, tələbləri belə müxtəlif olur, hətta quruluşları biri digərinə bənzəmir. Deməli, insanlara münasibət də fərdi olmalıdır. Bunun üçün hər bir məşqçi bu məsuliyyəti başa düşüb, kollektiv arasında mehribançılığı, səmimi əhval-ruhiyyə, sağlam mühiti yaratmalı, mənəvi-psixoloji iqlimi saflaşdırmağa, işgüzarlıq, əzmkarlıq ab-havası yaratmağa çalışmalıdır. Əks halda kollektiv böyük ziyan görə bilər. İdmançıların ideya-əxlaqi tərbiyəsi, sosial-psixoloji və mənəvi məsələlərinin həlli asan deyil. Bu mürrəkəb bir pedaqoji problemdir.

Məşqçinin vəzifəsi idmançılarda təkcə fiziki keyfiyyətlər deyil, eləcə də mənəvi, əxlaqi pedaqoji keyfiyyətlər tərbiyə etməkdir. Bunun üçün məşqçidən yüksək pedaqoji ustalıq tələb olunur. Ailə, məktəb və digər yerlərdə tərbiyə alan idmançıların yeni düşdüyü komandada ansambl yaratmaq məşqçidən, menecerdən, ümumiyyətlə, idarəedici və rəhbərdən asılıdır. Burada obyektlə subyekt özünü tam göstərməlidir. İdmançının təkcə fiziki gücünün inkişaf etdirilməsi qələbə ücün kifayət deyil. Çox zaman fiziki cəhətdən üstünlüyə malik olan idmançılar, psixoloji cəhətdən hazırlıqlı olmadıqları üçün rəqiblərinə uduzurlar. Burada idmançı öz daxili mədəniyyətini göstərir. Hətta hakim ədalətsizliyi fonunda belə idmançı dözümlü olmalı və gələcək qələbələrə hazırlaşmalıdır. Rəhbər işçilər, o cümlədən ilboyu planlaşdırma işində iştirak edən baş məşqçi hər bir idmançının imkanını düzgün qiymətləndirməyi bacarmalıdır. İdmançının gələcək uğurları onların verəcəyi məsləhətlərdən birbaşa asılıdır.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# FUTBOL




***Martın 7-də "Bulvar" hotelində AFFA-nın XXV növbəti konfransı keçirilib. Tədbirdə AFFA-nın prezidenti Rövnəq Abdullayev, FİFA-nın Avropa Milli Assosiasiyaları üzrə əlaqələndiricisi Byorn Vassallo, UEFA-nın İcraiyyə Komitəsinin üzvü Con Deleyni, UEFA-nın Milli Assosiayaların İnkişafı üzrə şöbəsinin rəhbəri Tyerri Favre, digər rəsmi qonaqlar və KİV nümayəndələri iştirak ediblər.***

## AFFA-nın növbəti konfransı keçirilib

Əvvəlcə Azərbaycan milli komandasının ötən il keçirdiyi oyunlarda vurulmuş qollardan ibarət videoçarx nümayiş olunub.

Rövnəq Abdullayev konfransda çıxış edərək, hesabat dövrü ərzində AFFA-nın ölkə futbolunun inkişafı məqsədilə həyata keçirildiyi tədbirlər barəsində qısa məlumat verib. AFFA-nın prezidenti görülən işlərin müsbət nəticələr verməkdə olduğunu vurğulayıb: "Hesabat dövrü ərzində bir sıra layihələr həyata keçdi. Gələn il Avropa Liqasının finalı Bakıda keçiriləcək. Keçdiyimiz dövr ərzində danışılmış oyunlarla bağlı məsələləri nəzarətə götürdük. Bir neçə şəxs cəzalandırıldı. Bu məsələ ilə bağlı sərt qərarlar davam etdirəcəyik. FİFA və UEFA-ya minnətdaram. Onlar Azərbaycan futboluna, AFFA-ya daim dəstək olurlar. 2017-ci il futbol üçün uğurlu il oldu. Çoxlu layihələr həyata keçirə bildik. Ölkəmizdə futbolun inkişafında, beynəlxalq oyunların təşkilində həmişə dəstək verdiyi üçün ölkə başçısı İlham Əliyevə təşəkkür edirəm. Klublarımız, hamımız çalışacağıq ki, bundan sonra da azarkeşlərimizə sevindirici anlar yaşadaq. FİFA və UEFA qadınların futbola cəlb olunmasında böyük işlər görürlər. Biz də bu yöndə fəaliyyətimizi davam etdiririk".

Mandat komissiyasının sədri Rəmiş Malıyev məruzə edərək Konfransın səlahiyyətli olduğunu bildirib. Səsvermələrin nəticəsini hesablamaq üçün tərkibi Rövşən Əhmədov, Vaqif Ömərov və Kərim Ağayevdən ibarət say komissiyası seçilib.

Konfransda FİFA və UEFA nümayəndələrinin iştirak etdiyini qeyd edən AFFA-nın baş katibi Elxan Məmmədov geniş məruzə ilə çıxış edib. "2017-ci ildə futbol yığmamız IV İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazandı. Ötən ildən danışanda təbii ki, Çempionlar Liqasının himninin səsi qulağımıza gəlir. "Qarabağ" bizi çox sevindirdi. Çempionlar Liqasının qrupunda iştirak edən 32 komandadan "Qarabağ" yeganə klub oldu ki, 8 komandalı çempionatı təmsil edirdi. Bu, keyfiyyət və kəmiyyəti müqayisə etmək üçün bir platformadır. Arzu edirəm ki, növbəti illərdə də klublarımız avrokuboklarn qrup mərhələsində oynasınlar.

2019-cu ildə Avropa Liqasının finalı Bakıda keçiriləcək. Bu tenderdə qalib gəldik. Çempionlar Liqasının finalını keçirmək üçün namizədliyimizi irəli sürdük. Lakin anlayırdıq ki, digər namizəd Madridin şansı daha çox idi. UEFA prezidenti Aleksandr Çeferin başda olmaqla, bizə göstərdikləri etimada görə hamısına minnətdarıq. 2015-ci ildən bu günə qədər uşaq futbolunda komandaların sayı artıb. Digər məsələ 2017-ci ilin sonunda İcraiyyə Komitəsinin təşkil olunan iclası idi. Orada önəmli qərarlar qəbul olundu. Region Liqası təşkil olundu, bununla bağlı işçi qrupu yaradıldı. Keçən il bu liqaya start verildi, 24 komanda iştirak edir. Çalışdıq ki, bu liqanın final mərhələsində bütün bölgələr iştirak etsin. Yeni layihədir. Ümid edirəm ki, növbəti illərdə daha detallı məlumat vermək imkanımız olacaq", - deyə baş katib əlavə edib.

AFFA-nın baş mühasibi Xalid Cavadov 2017-ci ilin maliyyə hesabatını təqdim edib. Ardınca müstəqil audit təşkilatının nümayəndəsi Ülvi Həsənovun hesabatı dinlənilib.

Kütləvi Futbol Departamentinin rəhbəri Cahangir Həsənzadə futbolun kütləviliyinin artırılması istiqamətində görülən işlərlə bağlı çıxış edib.

UEFA-nın HatTrick proqramı haqqında təqdimatla konfransda iştirak edən Tyerri Favrenin fikirləri dinlənilib.

Azərbaycan milli komandasının da iştirak edəcəyi UEFA Millətlər Liqası turniri ilə bağlı UEFA-nın hazırladığı tanıtım videoçarxı izlənilib. Videoçarx başa çatdıqdan sonra söz konfransda iştirak edən UEFA İcraiyyə Komitəsinin üzvü John Delaneyə verilib.

Sonda AFFA və UNİCEF-in birgə hazırladığı videoçarx izlənilib.

## İcraiyyə Komitəsinin iclasında yeni qərarlar

Ötən həftə AFFA İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.

Gündəlikdəki məsələlərin müzakirəsindən əvvəl AFFA-nın prezidenti Rövnəq Abdullayev futbol veteranı, uzun illər SSRİ çempionatının güclülər dəstəsində, beynəlxalq oyunlarda hakimlik etmiş Rüstəm Rəhimovu 70 illik yubileyi münasibətilə təbrik edib, ona üzərində "R.Rəhimov 70" yazılmış simvolik hakim forması təqdim olunub.

Rüstəm Rəhimov göstərilən diqqətə görə minnətdarlığını bildirib, müəllifi olduğu "Bu mənim alın yazımdır" avtobioqrafik kitabını AFFA prezidentinə hədiyyə edib.

İclasın gündəliyindəki məsələlərin müzakirəsindən sonra aşağıdakı qərarları qəbul edib:

1. Zeynal Zeynalov çimərlik futbolu üzrə Azərbaycan milli komandasının baş məşqçisi təyin olunsun.

2. Adları aşağıda göstərilmiş futbol veteranlarına AFFA-nın təqaüdü verilsin:

*Xüsusi təqaüd* - Müzəffər Qasımov, Gündüz Cəfərov;

*Təqaüd* - Vaqif Davudov, Nadir Qasımov, İsmayıl Hüseynov, Ağarza Rzayev.

3. Zaur Hacı-Məhərrəmov AFFA-nın Klubların Lisenziyalaşdırılması üzrə komissiyasının üzvü təyin olunsun.

4. AFFA-nın yanında Media Komitəsinin yeni formatda fəaliyyəti ilə bağlı müzakirələrin aparılması katibliyə həvalə olunsun və İcraiyyə Komitəsinin növbəti iclasına təkliflər təqdim olunsun.



İclasda Futbol oyunlarının nəticəsinin manipulyasiyası məsələləri və nəticəsi şübhə doğuran oyunlarla bağlı geniş müzakirə aparılıb. Azərbaycan Futzal Federasiyasının prezidenti, İcraiyyə Komitəsinin üzvü Zaur Axundov futzal federasiyasının fəaliyyəti ilə bağlı məruzə edib.

## Elxan Məmmədov:
### "Düşünürəm ki, Premyer Liqada 10 komanda olsa..."

İcraiyyə Komitəsinin iclasından sonra brifinq təşkil olunub. AFFA-nın baş katibi Elxan Məmmədov jurnalistlərin suallarını cavablandırıb.

***- Əvvəlcə İcraiyyə Komitəsinin iclasında qəbul olunan qərarlar haqda danışardınız.***

- İcraiyyə Komitəsinin iclasında 7 məsələ müzakirə olunub. Onlardan birincisi, Azərbaycan Futzal Federasiyasının hesabatı idi. Buyaxınlarda yığmamız Avropa çempionatında çıxış etmişdi. Həm bu barədə məlumat verildi, həm də qarşıdakı turnirlər barədə söhbət oldu. Zeynal Zeynalov çimərlik futbolu üzrə yığmamızın baş məşqçisi təyin olundu. O, yeganə futbolçudur ki, bir mövsümdə həm futbol, həm futzal, həm də çimərlik yığmamızda qol vurub. Bəlkə də, bu baxımdan Avropada yeganə futbolçudur. Danışılmış oyunlarla bağlı müzakirələr olundu. UEFA-dan yeni sənədlər daxil olub. İcraiyyə Komitəsinin üzvlərinə təqdim etdik. UEFA-nın İcraiyyə Komitəsinin üzvü də orada iştirak etdi. Növbəti məsələ təqaüd məsələsi idi. 2 nəfərə xüsusi, 4 nəfərə adi təqaüd verildi. Lisenziyalaşdırmada bir üzvlük çatmırdı. Zaur Hacı-Məhərrəmovu təklif etdik və təsdiq olundu.

İcraiyyə Komitəsi Media Komitəsinin fəaliyyətinin davam etdirməsini istəyir. Bizə tapşırıldı ki, yeni format üzərində işləyək. Çünki İcraiyyə Komitəsi düşünür ki, ilk ildəki fəaliyyət uğurlu idi, lakin sonra problemlər yarandı. Çox güman ki, apreldə sizinlə bir daha görüşüb, yeni formatı müzakirə edəcəyik.

***- Bayaq qeyd etdiniz ki, uşaq futbolunda komandaların sayı artıb. Ancaq hesabatda qeyd olunub ki, 8 faiz azalıb...***

- Biz uşaq futbolunu iki yerə bölürük: akademiya və kütləvi futbol. Premyer Liqada iştirak edən klubların sayı azalırsa, avtomatik olaraq, akademiyaların sayı azalır. Ancaq kütləvi futbolda artım var. Əvvəlki illərdə hansısa bölgə, qəsəbə bir komanda ilə təmsil olunurdursa, orada artıq başqa yaş qrupları da yaradılıb.

***- Danışılmış oyunlarla bağlı uzun müddətdir söhbətlər gedir. Bu məsələni birdəfəlik həll etmək olmaz?***

- Biz bu məsələni müzakirə etdik. Təbii ki, qərar yoxdur. Amma eyni qaydada davam olsa və təsdiqini tapsa, yeni formatı düşünəcəyik. Bəzi ölkələrin təcrübəsinə baxacağıq. Ola bilər ki, I Divizion yarımhəvəskar statusda olsun. Milli komandanın baş məşqçisi ilə də bunu müzakirə etmişdik.




***- Çempionatımızda azarkeş sayı da azalıb. Bununla bağlı müzakirə aparıldımı?***

- Azarkeşlərin sayı azalır. Bu da klubların sayından asılıdır. Buna görə də, məsələni qeyd etmişik. Məsələn, Sumqayıt stadionunun tribunaları kifayət qədər böyük deyil. Amma görünən odur ki, tribuna çoxalsa, əlavə 2-3 min azarkeş də stadiona gələr. Komandanın nəticəsi yaxşı olduqca, azarkeş də artır. "Kəpəz"dəki azalma da nəticə ilə bağlıdır.

***- Klublar Komitəsinin gücü çox azalıb. Bu qurumun iclasında qərara alınan məsələlər adiləşib. Bununla bağlı nə deyə bilərsiniz?***

- Biz AFFA olaraq, bir platforma yaratmışdıq. Klubların gücü olmalıdır ki, bundan səmərəli istifadə etsinlər. 8 klub var, onların icraçıları iclaslarda iştirak edirlər. Onlar gündəliyin detalları ilə tanışdılar. Klubların inkişafı məsələsini orada müzakirə edə bilərlər.

***- İclasda Premyer Liqa klublarının sayı artırılması ilə bağlı müzakirələr aparıldı?***

- Bəli, bu barədə də müzakirələr oldu. Amma I Diviziondan hansı komandanı gətirək? Sadəcə, əmin olmalıyıq ki, həmin klub oyun alqı-satqısında iştirak etmir. Mövsümün sonuna qədər gözləməliyik. Düşünürəm ki, Premyer Liqada 10 komanda olsa, çox yaxşı olardı. Beynəlxalq təşkilatlarla məsləhətləşmişik. Onlar 10 komandalı çempionatın ideal olduğunu bildiriblər.

***- Millimizin baş məşqçisi Qurban Qurbanovun Millətlər Liqası ilə bağlı planları maraqlıdır. Hamını komandamızın bu turnirdə necə edəcəyi maraqlandırır. Baş məşqçi ilə bu barədə söhbət oldumu?***

- Xeyr. Əvvəlki iclasdan potensial rəqibləri bilirdik. Təbii ki, baş məşqçimizin fikrini öyrəndik. Hazırda nəsə tələb etmək düzgün olmaz. Çünki Qurban müəllim işinə təzə başlayıb. Yoldaşlıq oyunlarından sonra bu barədə müzakirələrimiz olacaq. Mart və iyun aylarında oyunlar olacaq. İyunda hətta 3 oyun keçirilə bilər.

***Rahib Səmədov***

## Mütəxəssis rəyi

### Yükü baş məşqçi daşıyacaqsa, bəs klubdakı rəhbər vəzifələr nəyə lazımdır?!

"Zirə" son mövsümlərin ən stabil komandalarından biridir. İddialı klubların dağılması, zəifləməsindən maksimum yararlanan yeni yaradılmış "Zirə" qış fasiləsindən sonra geriləməkdə davam edir. Düzdür, 3-cü yeri hələ ki, qoruyurlar, ancaq xal fərqi kritik həddə çatıb. Belə davam etsələr, nəinki "3-cülük" oldən çıxacaq, 4-cü pillədən də aşağı enə bilərlər...

"Zirə" klub rəhbərliyi olaraq heç vaxt önə çıxmayıb. Baş məşqçi(lər), futbolçular istər meydanda, istərsə də meydandan kənarda gündəmdə olub, komanda ilə yanaşı klubun da yükünü daşıyıb(r)lar...

Bir-iki mövsüm "Zirə"nin ciddi rəqib kimi qəbul olunmaması işlərinə yarayırdı. "Kölgə"də qalaraq komandanı formalaşdırıb Avropaya da daşıya bildilər. Hətta yeni klub olduqları üçün ilk mövsüm qazandıqları uğuru başqalarına hədiyyə də etdilər. Artıq "Zirə"nin "gizlənmək" şansı yoxdur. Rəqibləri onları ciddi qəbul edir, hesablaşırlar...

Nə baş verdisə, Qəbələ səfərindən sonra baş verdi. "Zirə" klub olaraq tək meydanda deyil, kənarda da ciddi psixoloji zərbə aldı. Hiss olunur ki, bu "zədə"dən hələ sağalmayıblar.

Baş məşqçi komandanı arxasınca apara bilər, aparmalıdır. Klubun tam yükünü öz üzərinə davamlı götürə bilməz. Buna zaman, güc yetməz. Müəyyən müddətdən sonra fəsadları görünəcək. Necə ki, artıq biruzə verməyə başlayıb...

Sanki "Zirə"nin prezidenti, vitse-prezidenti, icraçı, idman direktorları yoxdur. İctimaiyyətdə klubu təmsil edən, məsuliyyəti üzərlərinə götürən baş məşqçi və mətbuat xidmətidir. Baş məşqçinin əsas fikri, düşüncəsi futbolçuların, onların hazırlığına, oyunların təhlilinə, nəticə qazanmağa yönəlmelidir. Komanda ilə birlikdə isə klubu qorumaq birbaşa rəhbərliyin üzərinə düşür, məsuliyyət daşıyırlar. Beyin yükləndiyi anda baş məşqçi təzyiq altında olur, bütün bacarığını komandaya ayıra bilmir. Əgər klubun tam yükünü baş məşqçi daşıyacaqsa, bəs klubdakı rəhbər vəzifələr nəyə lazımdır?!

Bu tək "Zirə"yə aid deyil, istənilən peşəkar klubda belə olmalıdır. Söhbət günlərlə mətbuatın diqqətində, gündəmdə olmaqdan getmir. Lazımi anda klubu, komandanı qorumaq, məşqçi və futbolçulara dəstəkdən gedir. Əks halda baş məşqçi və futbolçular özlərini kimsəsiz hiss edir və sonda meydandakı nəticələrdə özünü göstərir...

Müasir futbolun 4-5 ən mühüm faktorlarından biri də psixologiyadır. Psixoloji rahatlığı olmayan klub istədiyi uğuru qazana bilməz. "Zirə" tez bir zamanda dönüş yaratmağı bacarmalıdır...

Futbolda heç kim uğursuz nəticələrdən sığortalanmayıb. Əsas amillərdən biri çətin durumda vəziyyətdən çıxmaq bacarığının olmasıdır. Ayxan Abbasov və futbolçular son turları ciddi təhlil edib dönüş yaratmalıdırlar. Onlarda bu potensial var və bunu dəfələrlə göstəriblər. Təbii ki, klub rəhbərliyinin onları qoruması, dəstək verməsi, "Zirə"nin komanda yox, klub olmasını ötən mövsümlər olduğu kimi sübut etməkləri şərtilə...



***Tahir Süleymanov, futbol mütəxəssisi***

*Ağırlıqqaldırma*

## Bakıda və Sumqayıtda universal komplekslərin açılışı olub



Kompleksin rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra burada yaradılan şərait barədə məlumat verilib. Qeyd olunub ki, kompleksdə eyni anda 50-yə yaxın ağırlıqqaldıranın, eləcə də bodibildinq, pouerliftinq, krosfit idmançılarının məşq etmək, yarışlara ən yüksək səviyyədə hazırlaşmaq imkanı var. Burada paltardəyişmə otaqları, xüsusi idman geyimləri və vitaminləri stendi, futbol meydançası, digər otaqlar da xidmətə hazırdır.

5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə AAAF tərəfindən Bakıda və Sumqayıtda universal ağır atletika kompleksləri istifadəyə verilib.

Bakıda açılışı olan universal ağır atletika kompleksi "Zirvə" beynəlxalq idman klublarının və AAAF-ın birgə layihəsi əsasında inşa edilib.

Kompleksin açılış mərasimində AAAF-ın vitse-prezidenti, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev iştirak edib. Azər Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdikdən sonra burada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, kompleksdə ağırlıqqaldırma, bodibildinq, pouerliftinq, krosfit və fitneslə məşğul olmaq üçün hər cür şərait yaradılıb. Gün ərzində 500-ə yaxın idmançı bu məkanda peşəkar məşqlə məşğul ola bilər. Kompleks ən müasir avadanlıqla təchiz olunub, idmanın hər bir növü üzrə fərdi yanaşma tətbiq olunub. Burada tanınmış idmançılar, uğur qazanmış atletlər, təcrübəli həkimlər, masajçılar və məşqçilər çalışacaqlar.

Sumqayıtdakı kompleksin açılış mərasimində isə AAAF-ın birinci vitse-prezidenti Tofiq Heydərov, həmçinin federasiyanın Rəyasət Heyətinin üzvləri iştirak ediblər.

AAAF hər il 20-yə yaxın ağır atletika zal və kompleksinin açılışı, təmir-bərpa işlərini həyata keçirir. Ötən il Qobustanda mərkəzi ağır atletika zalı, "Spartak" Könüllü İdman Cəmiyyətinin Ramanadakı zalı, "Təhsil" Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin ağır atletika zalı, Mərkəzi Ordu İdman Klubunun bazasındakı ağır atletika zalı, Azərbaycan Respublikası Bədən Tərbiyəsi və İdman Akademiyasının ağır atletika zalı və digər qurğularda əsaslı təmir-bərpa işləri görülüb, avadanlıq yenilənib, məşq üçün ən yüksək şərait yaradılıb. Bununla yanaşı, Astarada AAAF Park Yaşayış Kompleksində yerləşən ağır atletika üzrə yeni təlim-məşq bazasının açılışı həyata keçirilib. Bu çoxfunksiyalı bazada 150 nəfərlik yarış və 20 nəfərlik ağır atletika məşq zalı, hər cür şəraitlə təmin olunmuş paltardəyişmə otaqları, həmçinin ən müasir avadanlığın quraşdırıldığı geniş AAAF fitness zalı, 50 nəfərlik yeməkxana və digər otaqlar idmançıların istifadəsinə verilib.

AAAF bu istiqamətdə işləri cari ildə də davam etdirəcək.

*Xəbərlər*

### Komandamız açıq Avropa turnirində mübarizə aparacaq

İyulun 2-dən 6-dək İsveçin Göteborq şəhərində keçiriləcək qadın həndbolçular arasında 16-cı açıq Avropa turnirinin qrupları məlum olub. "C" qrupunda yer alan Azərbaycan yığmasının rəqibləri Fransa, İspaniya, Finlandiya və İslandiya olacaq.

Qeyd edək ki, turnirdə iştirak edən 20 komanda dörd qrupda mübarizə aparacaq.

### Bakı birinciliyinə yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Mərkəzində 2005-2006-cı illər təvəllüdlü samboçular arasında paytaxt birinciliyi keçirilib.

Birincilikdə 13 çəki dərəcəsi üzrə 148 samboçu mübarizə aparıb.

Yarışda bütün çəki dərəcələri üzrə qaliblər müəyyənləşib. Turnirdə ilk üç yeri tutan idmançılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

*Velosiped*



## "Synergy Baku" Türkiyə Qran-pri yarışlarında fərqlənib

Türkiyənin Side bölgəsində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı Side Qran-pri yarışları keçirilib. Birgünlük yarış "Synergy Baku" kontinental komandası üçün uğurlu alınıb.

Yarışda Elçin Əsədov, Samir Cəbrayılov, Aleksandr Polivoda, Musa Mikayılzadə, Kərim Şirəliyev, Kənan Qəhrəmanlı və Telman Vəliyevdən ibarət heyətlə mübarizə aparan komandamızın heyətində ən yüksək nəticəyə Samir Cəbrayılov imza atıb. Əla komanda işinin nəticəsi olaraq finiş xəttinə 4 nəfərlik kiçik qrupun tərkibində gələn Samir 184,9 km məsafəni 4 saat, 16 dəqiqə, 23 saniyəyə başa vurub və fotofinişə əsasən 2-ci olub. Bu nəticə idmançımıza həm də 30 reytinq xalı da qazandırıb.

"Synergy Baku"nun digər üzvü Aleksandr Polivoda isə qalibdən 5 saniyə geri qalmaqla 5-ci yeri tutub və bununla da klubumuzun aktivinə daha 15 xal əlavə edib. Komanda hesabına gəlincə, "Synergy Baku" ən yaxşı göstəriciyə imza atmaqla xüsusi mükafatla da təltif edilib.

*Xəbərlər*

### "Shamkir Chess-2018" super turnirinin keçiriləcəyi vaxt müəyyənləşib

Azərbaycanın məhrum şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan ənənəvi "Shamkir Chess" super turnirinin iştirakçıları və keçiriləcəyi vaxt müəyyənləşib.

Turnir aprelin 18-dən 28-dək Şəmkirdə keçiriləcək. Ümumilikdə 10 şahmatçının iştirak edəcəyi yarış dairəvi sistem üzrə 9 turdan ibarət olacaq. "Shamkir Chess-2018"də hazırkı dünya çempionu norveçli Maqnus Karlsen, eks-dünya çempionu rusiyalı Vladimir Kramnik, güclü hollandiyalı şahmatçı Aniş Qiri, çinli Dinq Liren, bolqarıstanlı Veselin Topalov, daha bir rusiyalı Sergey Karyakin mübarizə aparacaqlar. Yarışda Azərbaycanı hazırda dünya reytinqində ikinci olan Şəhriyar Məmmədyarov, beynəlxalq qrossmeysterlər Teymur Rəcəbov və Rauf Məmmədov təmsil edəcəklər.

Xatırladaq ki, sonuncu iki "Shamkir Chess" turnirinin qalibi Şəhriyar Məmmədyarov olub.



### "Lokomotiv"dən əzmkar qələbə

Kişi voleybolçular arasında Azərbaycan Yüksək Liqasında II dövrəyə start verilib. Turun hər 3 görüşü eyni gündə təşkil olunub.

Günün ilk oyununda liderlər - "Sərhədçi" və "Lokomotiv" üz-üzə gəlib. Oyun gərgin və maraqlı mübarizə şəraitində keçib. İlk 2 setdə uduzan "dəmiryolçular" təslim olmayaraq, vəziyyəti dəyişə biliblər. Belə ki, əvvəlcə fərqi azaldan, ardınca hesabı bərabərləşdirən "Lokomotiv" tay-brekdə də üstün olaraq, əzmkar qələbə qazanıb.

Voleybol Mərkəzində təşkil olunan ikinci oyunda U-18 və MOİK klubları qarşılaşıblar. Görüşdə "hərbçilər" favorit sayılsa da, sevinən tərəf U-18 komandası olub.

Tura "Ekspress" - "Neftçi" oyunu ilə yekun vurulub. Qarşılaşmada "Ağ-qaralar" rəqibinə şans verməyərək, asan qələbə qazanıblar.

Qeydə alınan nəticələrdən sonra "Lokomotiv" komandası ilk pillədə qərarlaşıb. "Sərhədçi" ikinci, "Neftçi" isə üçüncü pillədə yer alıb.

### Ölkə kubokuna yekun vurulub

Həndbol üzrə Azərbaycan kuboku turnirinə yekun vurulub.

Final qarşılaşmaları komandaların gərgin və maraqlı mübarizəsi ilə yadda qalıb. Qadın həndbolçuların həlledici görüşündə "Azərsu" və "Nur" kollektivləri üz-üzə gəliblər. Rəqibindən daha üstün oyun göstərən "Nur" 30:24 hesabı ilə qalib gələrək Azərbaycan kubokuna sahib çıxıb.

Kişilərin final matçında isə "Məhsul" həndbolçularını 34:28 hesabı ilə məğlubiyyətə uğradan "Bakı" turnirin əsas mükafatına layiq görülüb.

### Ədalət təmsilçilərimiz "Çağırış kubokuna" dəvət alıblar

Azərbaycanın beynəlxalq dərəcəli hakimləri kişi həndbolçular arasında "Çağırış kuboku" uğrunda yarışların dörddəbir final mərhələsinin oyunlarına dəvət alıblar. Referilərimiz Vaqif Əliyev və Ələkbər Ağakişiyev martın 24-də Yunanıstanın "AEK Athens" və Lüksemburqun "Berçem" komandaları arasındakı oyunu idarə edəcəklər.

Yunanıstanda təşkil olunacaq ilk görüşdə Avropa Həndbol Federasiyasının nümayəndəsi bolqarıstanlı Andrey Andreev olacaq.

### Azərbaycan birinciliyi start götürdü

Martın 12-də "Şüa" İdman-Sağlamlıq Kompleksində stolüstü tennis üzrə gənclər və yeniyetmələr arasında Azərbaycan birinciliyi start götürüb. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə keçirilir. Şəxsi və komanda xarakterli yarışda 2000-2002-ci, 2003-cü illər təvəllüdlü və daha aşağı yaşlı stolüstü tennisçilər mübarizə aparırlar. Birinciliyin qalibləri Gənclər və İdman Nazirliyi və Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən mükafatlandırılacaqlar.

*Boks*

## *Deontey Uaylder yeddinci dəfə titulunu qoruyub*



Dünya Boks Şurasının (WBC) super ağır çəki dərəcəsində dünya çempionu amerikalı Deontey Uaylder Nyu-Yorkda keçirilən qarşılaşmada rəqibi Luis Ortisi məğlub edərək yeddinci dəfə titulunu qoruyub.

Uaylder 12 raundluq döyüşün 10-cu raundunda texniki nokautla qalib gəlib. Bu qələbə ilə 32 yaşlı Uaylder peşəkar rinqdə məğlubedilməzlik seriyasını qoruyub. Keçirdiyi 40 döyüşün hamısında qələbə qazanan amerikalı boksçu 39 görüşdə nokautla qalib gəlib. Otuz səkkiz yaşlı Ortis isə 28 qələbədən ibarət məğlubedilməzlik seriyasını qoruya bilməyib.

Bu görüşün nəticəsində Uaylder 2,1 milyon, Ortis isə 500 ABŞ dolları gəlir əldə edib.

Hər iki boksçu arasında qarşılaşma noyabrda planlaşdırılsa da, Ortis dopinq testindən keçə bilmədiyi üçün diskvalifikasiya edilmişdi. Ona görə də Uaylder titulunu qorumaq üçün kanadalı Bermeyn Stivern ilə qarşılaşmış və ilk raundda da nokautla qələbə qazanmışdı.

Super ağır çəki dərəcəsinin digər versiyası üzrə dünya çempionu britaniyalı Antoni Coşua ilə yeni zelandiyalı Cozef Parker arasında qarşılaşma isə martın 31-də Kardifdə keçiriləcək.

*Futbol*

## Fasilə öncəsi son tur

Bu gün Topaz Premyer Liqasında XX tura start veriləcək. Milli komandaların oyunları ilə əlaqədar yaranacaq fasilə öncəsi təşkil olunacaq tur iki gün ərzində keçiriləcək.

İlk oyun günü bir matç təşkil edilib. "Keşlə" doğma azarkeşlər önündə "Qəbələ" klubunu qəbul edəcək. Matç ukraynalı mütəxəssislərin qarşılaşması kimi də diqqət çəkir. Hər iki komanda son turlar məhsuldarlıq nümayiş etdirir. Bakılılar son 5, qəbələlilər isə 4 oyunda meydanı qolsuz tərk etmirlər.

İkinci oyun gününə Zirədə start veriləcək. Yerli komanda evdə "Səbail" klubu ilə üz-üzə gələcək. Son iki turda xala həsrət qalan tərəflərə mövqeyini qorumaq üçün qələbə vacibdir.

Turun maraqla gözlənilən matçı 8-ci km qəsəbə stadionunda olacaq. "Neftçi" doğma azarkeşlər önündə "Qarabağ" klubu ilə münasibətlərinə aydınlıq gətirəcək. Son iki görüşdə xal itirməyən Tərlan Əhmədovun yetirmələri lideri də büdrətmək niyyətindədir.

Turun son oyununda "Sumqayıt" çempionatın autsayderi "Kəpəz"i qəbul edəcək. 7 turdur uduzmayan Samir Abasovun yetirmələri doğma azarkeşlər önündə növbəti qələbə qazanmağa köklənib.

**Topaz Premyer Liqası**

***XX tur***

**13 mart**

15:30. "Keşlə" - "Qəbələ"
***Bakı."İnter Arena" stadionu.***

**14 mart**

17:00. "Zirə" - "Səbail"
***Bakı. Zirə İdman Kompleksinin stadionu.***

18:00. "Neftçi" - "Qarabağ"
***Bakı. 8-ci km qəsəbə stadionu.***

20:00. "Sumqayıt" - "Kəpəz"
***Sumqayıt. Şəhər stadionu.***

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**